Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3 APREL 2019-cu il

№ 58 (3956)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN XİN-in TONOYANLA BAĞLI İKİ SUALINA PAŞİNYANDAN KONKRET CAVAB - MÜHARİBƏ RİTORİKASININ SİFARİŞÇİSİ GÖRÜNDÜ...

■ səh. 4 ■



■ səh. 9 ■

## İlham Əliyevlə Paşinyanın Vyana görüşündən qabaq Ermənistan XİN başçısının qapalı Moskva səfərinin sirri bilindi

*Rusiya erməni oyununa uymadı, Paşinyanın Mnatsakanyandan ürəyi qırıldı, Vyanadan sonra Ermənistan elitasının yasa batması səbəbsiz deyilmiş...*



**İlham Əliyevin Qars və İqdırda bələdiyyə seçkisi ilə nə bağlılığı - ermənilərin yeni təxribatı...** ■ səh. 8 ■

**Vyanadan sonra iki liderin dövlət suverenliyi baxımından fərqli davranışı - İlham Əliyev və Paşinyan nümunələri...** ■ səh. 6 ■




**Ermənistan Qars və İqdıra açıq ərazi iddiasını ortaya qoydu...** ■ səh. 9 ■

**Prezident Azərbaycan Ordusunun xüsusi təyinatlılarını xalqa və dünyaya belə tanıtdı - "Siz ən ağır döyüşlərdə iştirak etmisiniz"** ■ səh. 3 ■

**Azərbaycanda 14 sosial müavinət, 7 Prezident təqaüdü və iki yeni təqaüd - əvvəl nə qədər idi, indi nə qədər oldu...** ■ səh. 10 ■

**"Şimal axını" və "Türk axını" çətinlikdə, Azərbaycan qazına yeni şans - Sloveniyanın sabiq prezidentinin maraqlı bəyanatı...** ■ səh. 8 ■

**Azərbaycan "Xalq hərəkatının" içində qırğın başlayıb...** ■ səh. 6 ■

**Azərbaycanın milli qəhrəmanları arasında 10-dan çox qeyri-azərbaycanlı, hətta Azərbaycanda doğulmayanlar var** ■ səh. 11 ■

**"Diqlas"dakı zərərdidə sahibkarlara ölkənin başqa sahibkarları sükutla yanaşdı...** ■ səh. 12 ■

**"Azərsu" su filtri satanları ifşa etdi, satıcı şirkətlər isə müəmmaya döndülər...** ■ səh. 14 ■

**Qarabağ atlarını ingilis və almanlar 5 minə alıb Bakıdan aparırlar...** ■ səh. 12 ■

■ səh. 5 ■ **Prezidentin "SİMBİOZ"a tərs şilləsi...**



■ səh. 4 ■ **Aprel zəfərindən sonrakı üç il - Azərbaycan diplomatiyası Qarabağ müstəvisində nələri dəyişdi...**



■ səh. 10 ■ **Bələdiyyə seçkiləri qardaş Türkiyənin sonrakı daxili həyatında hansı proseslərin əsasını qoydu...**



■ səh. 13 ■ **Aprel şəhidlərimizə ayrıca anım abidəsi...**



■ səh. 15 ■ **Əfsanəvi Cavad xanı dirildən rejissor özü həyatla vidalaşdı**





## Prezident Siyam Hacıyevi Culfaya yeni icra başçısı təyin etdi

**Prezident İlham Əliyev S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

## Azərbaycan XİN Ermənistan müdafiə nazirinin "yeni işğallar" bəyanatını ifşa edən açıqlama yaydı

**Ermənistan rəhbərliyinin son bəyanatları və hərəkətləri, o cümlədən işğalçı ölkənin müdafiə nazirinin "yeni ərazilər tutmaq üçün yeni müharibə" formulasını təqdim etməsi tamamilə qəbuledilməzdir.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin şərhində deyilir.

Azərbaycan XİN hesab edir ki, bu kimi addımlar iki ölkə rəhbərləri səviyyəsində baş tutmuş Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir.

"Təkrar edirik ki, bu kimi təxribatlar uzun illər ərzində aparılan danışıqlar prosesini və ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətini ciddi sual altına qoyur.

Vurğulamaq istərdik ki, belə təhlükəli ritorikanın mümkün mənfi nəticələrinə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərindədir" - XİN-dən bildirilib.

# Azərbaycan və Rusiya prezidentləri Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə ediblər

**Aprelin 2-də Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

Baki-xeber.com-un xəbərinə görə, Prezidentlər ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə martın 29-da Vyanada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilmiş ilk rəsmi görüşün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə edib, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesinin fəallaşdırılmasının əhəmiyyətini vurğulayıblar.



**Söhbət zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da müvəffəqiyyətlə inkişafına əminlik ifadə olunub.**

# Elmar Məmmədyarov Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının 16-cı iclasında iştiraka hazırlaşır

**Aprelin 4-də Belçika Krallığının paytaxtı Brüssel şəhərində Azərbaycan-Avropa İttifaqı (Aİ) Əməkdaşlıq Şurasının 16-cı iclası keçiriləcək.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, iclasda Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqı tərəfindən isə xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə Federika Moqerini və Avropa qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissar Yohannes Han iştirak edəcək.

İclasda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, Avropa İttifaqı-Azərbaycan tərəfdaşlıq gündəliyinə daxil olan məsələlər, yeni ikitərəfli saziş layihəsi üzrə davam edən danışıqlar, Tərəfdaşlıq Prioritetləri, Şərq Tərəfdaşlığı və digər məsələlər ətrafında müzakirələrin aparılması nəzərdə tutulub.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Şəhid ailələrinin kreditlərini bank özü ödəyəcək




**Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilib.**

Assosiasiyadan "Trend"ə verilən məlumata görə, iclasda yekdilliklə Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin bir nəfər ailə üzvünün banklara 360 gündən artıq gecikməsi olan 1000 (min) AZN qədər kreditlərinin (faiz borcu daxil olmaqla) bankların öz vəsaitləri hesabına ödənilməsi barədə qərar qəbul edilib.

Bundan sonra da banklara bu istiqamətdə əlavə güzəştlər edilməsi imkanlarının araşdırılması tövsiyə edilib.

**Aydın Quliyev Niyaz Niftiyevə atası Məhəmmədəli kişinin vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Zülfiyyə Eldarqızı şair-publisist Nurəddin İsmayılovun vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin kədər hissi ilə mərhumun əzizlərinə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Samirə Səfərova Niyaz Niftiyevə atası Məhəmmədəli kişinin vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Azər Abdulla, Şəmsəddin Əliyev, Ağa Abdullaoğlu, Abdür Rəhimov Yavər, Cavad Abbasov, Lətifə Allahverdiyeva, Rəkidə İlham, Əlifağa Məmmədov, Zeynal Həmidov, Tamerlan Səmədov, Tehran Abbasov, Eldar Zeynalov, Rəşad Məhəmmədov Xətayə Xasməmmədovaya qardaşı Sarif bəyin vaxtsız vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

## Sosial müavinət müəyyən edilərkən ögey uşaqların da nəzərə alınması təklif olundu

Hesablama Palatası çoxuşaqlı anaların yaşa görə sosial müavinət hüququ müəyyən edilərkən onların 8 yaşınadək tərbiyə etdikləri ögey oğul və qızlarının nəzərə alınmasını da təklif edib. "Trend"in məlumatına görə, Hesablama Palatası bununla bağlı təkliflərini artıq Nazirlər Kabinetinə təqdim edib.

Hesablama Palatası bununla əlaqədar "Sosial müavinətlər haqqında" qanuna müvafiq dəyişikliklərin olunmasını təklif edib.

Təkliflə bağlı Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələrin edilməsi və "Sosial müavinətlər haqqında" qanuna dəyişiklik edilməsi üçün layihələr hazırlanıb. Hazırda layihələr razılaşdırma mərhələsindədir.



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Ali Baş Komandan İlham Əliyevə raport veriblər.**



# President Azərbaycan Ordusunun xüsusi təyinatlılarını xalqa və dünyaya belə tanıtdı - "Siz ən ağır döyüşlərdə iştirak etmisiniz"



Müdafiə naziri Ali Baş Komandana hərbi hissədə aparılan yenidənqurma işləri barədə məlumat verib.

Bildirilib ki, bu hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıb. Hərbi hissənin ərazisində, eyni zamanda, burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunub. Dövlət başçısına məlumat verilib ki, burada yeni binaların da tikintisi nəzərdə tutulur.

Prezident İlham Əliyev hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını izləyib, sonra hərbi qulluqçularla görüşüb.

Ali Baş Komandan görüşdə çıxış edərək deyib:

-Bu gün hərbi hissə ilə tanışlıq mənə çox xoş təəssürat bağışladı. Son illərdə hərbi hissə əsaslı şəkildə yenidən quruldu, təlim prosesi üçün bütün lazımi şərait yaradıldı...

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi. Döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildi.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bizim torpaqlarımız işğal altına düşmüşdür. Bunun səbəbi də odur ki, o vaxt hakimiyyətdə olan qüvvələr öz yarıtmaz fəaliyyəti ilə imkan verdilər ki, Ermənistan torpaqlarımızı zəbt etsin. AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin. ... Qeyd etdiyim kimi, sonuncu reytinqə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq.

Keçən ilin sonunda 300-dən çox hərbçiyə yeni mənzillər verildi. Bu günə qədər yüzlərlə hərbçi dövlət tərəfindən mənzillərlə təmin edilib. Bizim hərbi hissələrimizdə mülki işlərdə mülki vətəndaşlar çalışır, bu da yenilikdir. Beləliklə, biz hərbçiləri, onların fəaliyyətini əsas vəzifə borcuna yönəltmişik, eyni zamanda, 20 minə yaxın mülki şəxs işlə təmin edilmişdir.

O ki qaldı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur.

Ona görə danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə bu münaqişəni belə də adlandırırıq: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi.

**Siz - burada xidmət göstərən hərbçilər öz vəzifə borcunuzu çox yaxşı bilirsiniz, yaxşı başa düşürsünüz. Siz ən ağır döyüşlərdə iştirak etmisiniz, qəhrəmanlıq, şücaət göstərmisiniz. Dövlət sizin fəaliyyətinizi yüksək qiymətləndirir.**

**Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın baş naziri arasında keçirilən Vyana görüşündən dərhal sonra Ermənistanın müdafiə nazirinin verdiyi sərsəm bəyanatın sifarişçisi məlum olub. Qeyd edək ki, bu il martın 30-da Tonoyanın Amerikadakı erməni icması ilə görüşdə verdiyi bəyanatın məzmunu belə idi:**

# Azərbaycan XİN-in Tonoyanla bağlı iki sualına Paşinyandan konkret cavab - müharibə ritorikasının sifarişçisi göründü...



"Ermənistanın müdafiə naziri kimi deyirəm ki, mən "ərazi qarşılığında sülh" formulunu dəyişdirmişəm. Artıq biz bunun tam əksini edəcəyik, yəni "yeni ərazilər üçün yeni müharibə". Heç bir ərazi güzəşti olmayacaq. Qarşılıqlı kompromislər isə mümkündür".

O, həmçinin, bundan sonra Ermənistanın hücum qoşun bölmələrinin sayını artıracağını deyib.

Sülh danışıqlarından dərhal sonra Ermənistan rəsmisinin belə məzmunlu bəyanatla çıxış etməsini birbaşa sülh prosesini pozmaq cəhdi kimi dəyərləndirən Azərbaycan XİN bununla bağlı Ermənistandan izahat tələb etmişdi. Öyrənmək istəmişdi ki, həmin fikirlərin müəllifi Ermənistan hakimiyyətidir, yoxsa Tonoyan şəxsi fikirlərini bölüşüb?

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti Nyu-York şəhərinin erməni diasporunun nümayəndələri ilə görüşdə Ermənistanın müdafiə naziri David Tonoyanın "ərazilər əvəzinə sülh formatını dəyişərək yeni ərazilər uğrunda yeni müharibə prinsipinə üstünlük verəcəyik, biz hücum bölmələrinin sayını artıracağıq ki, döyüş əməliyyatlarını düşmən ərazisində apara bilək" kimi fikirlərini belə şərh etdi ki, bu, ölkənin işğalçı və qəsbkar siyasətinin Ermənistanın yüksək səviyyəli rəsmisi tərəfindən növbəti etirafıdır: "Ermənistan baş nazirinin Vyanada Azərbaycan dövlət başçısı ilə görüşü nəticəsində münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar prosesində konkret və nəticəyə yönəlik addımların atılması və sülh mühitinin yaradılması ilə bağlı qəbul edilən birgə bəyanatdan dərhal sonra erməni müdafiə nazirinin belə bir çıxışı təhrikçi xarakter daşıyır və münaqişənin sülh yolu ilə həllinə və bu xüsusda Minsk Qrupunun həmsədrlərinin simasında beynəlxalq ictimaiyyətin səylərinə qarşı çıxır.

Ermənistan tərəfinin diqqətinə çatdırırıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır və beynəlxalq hüququn ona verdiyi özünümüdafiə haqqı ilə Azərbaycan işğal edilmiş torpaqlarını qısa müddətdə azad etmək iqtidarındadır.

Azərbaycan Ermənistan kimi digər dövlətlərin ərazilərinə iddialarla çıxış etmir və ərazilər zəbt etmək fikrində deyil. Azərbaycanın tələbi BMT TŞ-nin müvafiq qətnamələrinə uyğun olaraq, onun beynəlxalq tanınmış ərazilərindən işğalçı Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasıdır. Bütün bu illər ərzində beynəlxalq ictimaiyyətin dəstəyilə aparılan səylərimiz məhz bu məqsədə yönəlib. Əks təqdirdə, Azərbaycan beynəlxalq hüququn müvafiq norma və prinsipləri, o cümlədən, BMT Nizamnaməsini rəhbər tutaraq, öz torpaqlarını bütün digər vasitələrlə erməni işğalından azad etməyə hazırdır və bundan ən yaxşı xəbərdar olan elə məhz Ermənistandır.

Yekunda müdafiə nazirinin çıxışı kontekstində, Ermənistan ali rəhbərliyinin şərhlərini eşitmək istərdik: Nazir bu çıxışını Ermənistan rəhbərliyinin razılığı əsasında edibmi, yoxsa bu, nazirin, ən azından, danışıqların mahiyyətini və nəticədə qəbul edilmiş birgə bəyanatı şübhə altına alan şəxsi improvizasiyasıdır?"

Ermənistanın ali rəhbəri qismində Paşinyan bu məsələyə tam aydınlıq gətirib. O, "Erablur" hərbi panteonunda jurnalistlərə açıqlamasında Ermənistan müdafiə naziri D.Tonoyanın "ərazi qarşılığında sülh" formulunu dəyişərək, onu "yeni ərazilərin işğalı üçün yeni müharibə" formulu ilə əvəzləməsini dəstəkləyib: "Əgər müdafiə naziri başqa bəyanat versəydi, onu işdən qovardım. O deyib ki, əgər müharibə olarsa, bizim cəhdimiz bu müharibədə qələbə qazanmaq olacaq və bu normaldır. Bu cür bəyanat nizamlanma prosesinə heç bir kölgə salmır, əksinə, sülh yolu ilə həllin vacibliyini vurğulayır".

Göründüyü kimi, Paşinyan çəkinmədən sülh danışıqlarına arxa çevirdiklərini, müharibə ritorikasını dövlət səviyyəsində dəstəklədiyini, hətta yeni ərazilərin işğal edilməsində maraqlı olduqlarını bəyan edib. Ermənistan rəhbərliyinin bu mövqeyinə mütləq mənada beynəlxalq qurumlar, ATƏT-in Minsk Qrupu səviyyəsində reaksiya verilməlidir. Konkret olaraq qeyd olunmalıdır ki, müharibə ritorikası ilə danışan və sülh prosesinə bilərəkdən xələl gətirən ölkə məhz Ermənistandır. Bundan böyük etiraf ola bilməz. Paşinyanın özü belə tendensiyanı dəstəkləyirsə, demək ki, bu, Ermənistan dövlətinin siyasətidir. Məlumat üçün qeyd edək ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin yaydığı birgə bəyanatlardan birində münaqişə tərəflərinin müharibə ritorikasından əl çəkmələrinə dair çağırış edilirdi. Həmin vaxt erməni siyasi dairələri və KİV-i məlum iradın ünvanının Azərbaycan olduğu ilə bağlı geniş təbliğata start verdilər. Həmsədrlərin ünvansız iradı ətrafında ermənilər üçün manevr etmək asan idi. İndi isə Paşinyan kimin müharibə ritorikasına üstünlük verdiyinə tam aydınlıq gətirdi. Beynəlxalq qurumlar və həmsədrlərdən sərt mövqe gözləmək ümidilə…

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycan Ordusunun 2016-cı ilin aprelində işğalçı Ermənistan üzərində qazandığı şanlı qələbənin üç ili tamam olur. O zaman işğalçı ordu atəşkəs rejimini və beynəlxalq hüquq normalarının tələblərini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu ərazilərini intensiv atəşə tuturdu.**

# Aprel zəfərindən sonrakı üç il - Azərbaycan diplomatiyası Qarabağ müstəvisində nələri dəyişdi...

## *Aydın Mirzəzadə: "Ermənistanın bütün cəhdlərinə baxmayaraq, Azərbaycan əleyhinə hansısa qətnamə qəbul edilmədi"*



*"Azərbaycan öz ərazi bütövlüyünün təmin edilməsilə bağlı mübarizədə diplomatik müstəvidə əlavə arqumentlər əldə etdi"*

Erməni təxribatının qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilib. 4 günlük döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri düşməndən azad edib, Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinə nəzarəti ələ keçiriblər. Döyüşlərin yekunu olaraq Silahlı Qüvvələrimiz tərəfindən 2000 hektardan artıq ərazi erməni işğalından azad edilib və daha çox ərazi nəzarətimiz altına keçib.

Digər tərəfdən, aprel döyüşlərinin bir sıra siyasi nticələri də oldu. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan istənilən an öz torpaqlarını işğaldan azad etməyə hazırdır. İstər Ermənistan rəhbərliyi, istərsə də işğalçı ölkənin havadarları Azərbaycanın hərbi müstəvidəki gücünü gördülər. Aprel döyüşləri Qarabağ probleminin yenidən gündəmə gəlməsinə səbəb oldu.

ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə səfərləri artdı. Aprel döyüşlərindən sonra Ermənistan ordusunda ciddi neqativ problemlərin olduğu ortaya çıxdı və bir sıra yüksək rütbəli hərbçilərin karyerasına son qoyuldu. İllərlə işğalçı ordu barədə yaradılan mif darmadağın edildi. Aprel döyüşlərindən sonra gedən proseslər Ermənistanda hakimiyyət dəyişikliyinə səbəb oldu. Ermənistan rəhbərliyi hərbi müstəvidə məğlub duruma düşdüyü kimi, siyasi müstəvidə də məğlubiyyətə uğradı. Uğurlu aprel əməliyyatından sonra Ermənistanın işğalçılıq siyasəti danılmaz faktlarla yenidən təsdiqləndi. Belə ki, döyüşlərdə ölənlərin əksəriyyətinin Ermənistan hərbi qulluqçularının olması, onların Ermənistan hökuməti tərəfindən mükafatlandırılması, yaralıların böyük bir hissəsinin Ermənistanın tibb müəssisələrində müalicə alması və s. faktlar buna əyani sübutdur.

Bütün bunların fonunda, aprel döyüşləri ötən 3 il ərzində diplomatk müstəvidə Azərbaycanın xeyrinə hansı dəyişikliklər yarada bildi?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, aprel döyüşləri diplomatik müstəvidə bir sıra uğurlara zəmin yaratdı:** "Aprel döyüşlərində Azərbaycan öz ərazi bütövlüyü uğrunda mübarizə aparırdı və dünya bunu belə də qəbul etdi. Ermənistanın bütün cəhdlərinə baxmayaraq, Azərbaycan əleyhinə hansısa qətnamə qəbul edilmədi. Eyni zamanda, Azərbaycana qarşı çağırışlar səslənmədi. Ermənistan təkləndi və işğalçı olduğu bir daha təsdiqləndi. Faktiki olaraq, Ermənistan diplomatik müstəvidə çox çıxılmaz bir duruma düşdü. Həmin dövrdə Ermənistan prezidenti Serj Sarkisyanın beynəlxalq təşkilatlara müraciəti səmərəsiz oldu. O, İrəvanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin səfirlərini yığaraq atəşkəsin bərpa edilməsi ilə bağlı çağırışlar edib, bir növ, yalvardı. Bütün bunlar göstərdi ki, Ermənistan diplomatik müstəvidə Azərbaycana uduzur. Azərbaycan öz ərazi bütövlüyünün təmin edilməsilə bağlı mübarizədə diplomatik müstəvidə əlavə arqumentlər əldə etdi. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Paşinyan danışıqların formatını dəyişməyə çalışsa da, buna nail ola bilmədi. Axırda öz mövqeyindən geri çəkilərək Azərbaycanla birbaşa danışıqlara getməyə məcbur oldu. Dağlıq Qarabağ problemi, həmişəki kimi, dünya siyasətinin gündəliyində ön sıralarda qalmaqda davam edir. Bütün bunlar Azərbaycanın diplomatik müstəvidə uğurlarıdır".

***Vidadi ORDAHALLI***

**Ölkəmizdə çap mediasına dövlətin zəruri sayılan maliyyə dəstəyinin yeni mərhələsi başladı. Günümüzdə medianın əsas müzakirə mövzusu, demək olar ki, budur. Hər kəs araşdırır, nələrin necə dəyişdiyini, hansı perspektivə doğru getdiyini təyin etməyə çalışır. 2009-cu ildən başlayan şərti birinci mərhələdə dövlətdən maliyyələşən qəzetlərin sayı ilə indiki mərhələdəki qəzetlərin sayı arasında fərq, sözsüz ki, var və bu ilk baxışdan nəzərə çarpan ən böyük formal dəyişiklikdir.**

# Prezidentin "SİMBİOZ"a tərs şilləsi...



İlk mərhələdə KİVDF gündəlik, həftəlik, günaşırı olmaqla 33 çap mediasına maliyyə dəstəyi verirdi, aprelin 1-dən başladılmış şərti ikinci mərhələdə 25 qəzet qaldı. Ən əsas məsələ odur ki, şərti dövrləşdirmədən asılı olmayaraq dövlətimiz və onun adından şəxsən Prezident çap mediasının maliyyələşdirilməsini davam etdirmək iradəsini bir daha ortaya qoydu. Say azalması isə kənar təsirlərlə yox, bəzi KİV orqanlarının fəaliyyəti ümumiyyətlə dayandırmaq barədə könüllü seçimləri, habelə bəzi media orqanlarının spesifik sahə təyinatları ilə bağlıdır. Əsas odur ki, çap mediasının dövlətdən maliyyələşdirilməsi davam edir və gələcəkdə bu prosesə KİVDF-nin xəttilə elektron-internet medianın da maliyyələşməsinin əlavə ediləcəyi kimi çox real perspektiv də var.

Çap mediasına dövlət adından Prezidentin maliyyə dəstəyinin yeni mərhələdə davam etdirilməsi təkcə bu prosesə bağlı olan qəzetlər üçün yox, bütün cəmiyyət və dövlətçilik üçün maraqlı strateji məsələdir. Yeni məsələyə "qəzet rəhbərləri olaraq maliyyə dəstəyi aldığımız üçün bu prosesi dəstəkləyirik" kimi bəsit təfəkkürlə yanaşmaq olmaz. On minlərlə oxucunun və bütün cəmiyyərin marağında olan bir prosesin içindəyik.

**Hədəfləri çoxşaxəli, yaxın və uzaq olan, vacib dövlətçilik və tarixi əhəmiyyət daşıyan Böyük Proses...**

Açıq deyək ki, bu prosesin dayanmasını istəyənlər də var idi. Onlar ən müxtəlif arenalarda - dövlətdə, siyasi müstəvilərdə, mühacirət kəsimində olmaqla indi də var və hərəsi öz işində, öz niyyətlərindədir. Sadəcə ona görə keçmiş zamanda danışdıq ki, onların lap son günlərə qədər göstərdikləri nəhayətsiz çabalar baş tutmadı. Onun baş tutması media-dövlət, media-cəmiyyət həmrəyliyinin hansısa dərəcələrdə ziyan görməsi kimi arzuolunmaz bir mənzərənin ortaya çıxmasını şərtləndirə bilərdi. Beləliklə, ölkə Prezidentinin çap mediasına yeni prinsiplərlə, yeni mərhələdə maliyyə dəstəyini davam etdirmək qərarı ilk olaraq "mediaya dövlətin maliyyə dəstəyi özünü doğrultmur" deyən ağızlara tərs şillə effekti kimi özünü göstərdi və bunu, hansı kateqoriya üzrə olmasından asılı olmayaraq, dövlətin maliyyə dəstəyinin içində olan hər bir qəzet rəhbəri dəyərləndirməli, sonrakı fəaliyyətində də gündəlik olaraq nümayiş etdirməlidir. Heç bir xüsusi tezis, ya antitezis icad etməyə ehtiyac yoxdur. Bir vaxtlar mətbuatımızdan "autsayder" edilmiş bəzi keçmiş media rəhbərlərinin və xaricdə "antimillilərə" çevrilmiş şəxslərin onlara verdiyi dəstəyin birgə hədəfi bu idi - "dövlət mediaya dəstəyi dayandırsın". Bu hədəfə nail olmağın taktiki üsulu isə ortaya "qəzetlərə dövlət dəstəyi özünü doğrultmur" kimi gurultulu "ideya tullamaq" oldu. Dövlətin mediaya dəstəyi özünü necə doğrultmur ki, bu gün Azərbaycan mediasının əli də, gözü də, ayağı da bir vaxtlar hamının yaxşı tanıdığı və eyni zamanda heç də yaxşı tanımadığı bəzi əcnəbi fondların, səfirliklərin qapısından yığışıb?!

Mediamızın tarixdə heç vaxt indiki qədər güclü olmadığını necə görməmək olar? "Dövlət medianın, media isə dövlətin yanında olduğu üçün güclüdür" kimi çox sadə izahı olan məsələni ora-bura çəkmək ancaq qərəzlilərin, bədxahların işi ola bilər. Dövlətçiliyin yanında olmayan medianın nəinki güclü, heç mövcudluğunu belə saxlaya bilmədiyini görə bilməzmisiniz?! "Doğrultmur" deyənlər çox yaxşı bilirlər ki, bu gün cəmiyyətimizin mütləq həlledici çoxluğunun Prezidentin və dövlətçiliyin yanında olması səbəbsiz deyil və ya asanlıqla əldə olunmayıb. Bunu görmək onlara, sadəcə, lazım və maraqlı deyil. Cəmiyyətimizin mütləq çoxluqla "bir zindana vurması", əvvələ, Prezidentin sabitliyə yönəlik sosial-iqtisadi siyasəti və xarici siyasət kursu ilə bağlıdır, sonra onun, xüsusilə ictimai-siyasi, ideoloji-təbliğat işi ilə bağlı komandasının ağıllı və zəhmətkeş fəaliyyət göstərməsi ilə bağlıdır, "və sair" adı ilə sıralamanı davam etdirsək, məlum bir mərtəbədə çox təsirli və effektli faktor kimi media gəlir. Mən, əlbəttə, "cəmiyyət ona görə Prezidentin yanındadır ki, media Prezidentin və dövlətçiliyin yanındadır" kimi çox iddialı və tam ehtivalı olmayan yekə tezislə çıxış etmək istəmirəm. Ancaq əminəm ki, medianı ən müxtəlif mülahizələrlə dövlətin dəstəyindən ayırmaq istəyənlərin uzaq strateji hədəfi "cəmiyyətin mütləq çoxluğunu" Prezidentdən, dövlətçilik mövqeyindən ayırmaqdır. Bir anlığa medianın dövlət dəstəyindən məhrum olduğu, məhrum edildiyi, ya da bu bağlılığın hər hansı səbəbdən qırıldığı vəziyyəti göz önünə gətirmək çətin deyil. Nə baş verəcək? İlk sırada, sadəcə qəzetlərin bir çoxu mövcudluğunu itirəcək, qəzetlərin öz elektron versiyasının gücü ilə internet-sosial şəbəkələrə tənzimləyici və pozitiv yönəldici, neqativləri az da olsa neytrallaşdırıcı təsir imkanları itiriləcək, ölkədə ictimai rəyin informasiyalarla idarə edilməsi kimi müstəsna dövlətçilik işini hər kəsin - dostun da, düşmənin də maneəsiz fəaliyyət göstərdiyi, hər cür ilan, əqrəb zəhəri damızdırdığı elektron məkanın ixtiyarına buraxacağıq. Nəhayət, az da olsa, öz mövcudluğunu saxlaya biləcək qəzetlərin öz elektron resursu ilə birgə ən müxtəlif siyasi partiyaların təsiri altına düşəcəyini də bura əlavə etsək... sonrasını heç proqnoz etməyə dəyməz. Tək bunu deyək ki, qəzetlərin müxtəlif siyasi partiyaların orbitində fırlandığı mərhələni Azərbaycan çoxdan arxada qoyub və bunun ümumi inkişaf, təhlükəsizlik və əminamanlıq baxımından hansı fəlakətləri törət(mə)diyini hər kəs xatırlayır. Güman ki, bütün bunlardan sonra mediaya dövlət dəstəyini guya özünü doğrultmayan bir institut kimi hədəfə alanların necə təhlükəli, dağıdıcı mövqedə olduqlarını başa düşmək çətin olmaz. Əfsus ki, bu təhlükəli mövqeni dəstəkləyən, hətta zaman-zaman bu məqsədlə Prezidentin baxışlarına və siyasətinə də təsir göstərmək üçün məqam gözləyən bəzi kəmfürsət dövlət məmurlarının olduğu da eşidilir. Ancaq mediada tam fərqli düşüncə və reaksiya var.

**KİVDF-nin yeni mərhələdə üç kateqoriya üzrə qəzetlərə maliyyə dəstəyi mexanizminin media tərəfindən anlayışla qarşılandığı göz qabağındadır və bu səbəbsiz deyil. Media, xüsusilə birbaşa maliyyələşmə prosesinin içində olan qəzetlər media-dövlət birliyinin ölkəmizdəki sabitlik üçün nə qədər önəmli olduğuna çox ayıq baxır. Mətbuata dövlət dəstəyini hədəfə alan bəzi beynəlxalq qurumların, qərəzdən açıq milli düşmənçiliyə adlamış bəzi dönük mühacirlərin və onların sırasında yer almış bəzi mənfəətpərəst daxili "PERSONALARIN" möhkəm olmayan "SİMBİOZ"u əməlli-başlı zərbə aldı - Prezidentin sayəsində...**

Yeni mərhələdə hansı qəzetin hansı kateqoriyada olmasının həyata keçirilən missiya baxımından prinsipcə heç bir fərqi yoxdur. Gündəlik, günaşırı və həftəlik qəzet buraxan hər kollektiv və hər baş redaktor bir böyük missiyanın eyni dərəcədə məsul aparıcıları və daşıyıcılarıdır. Bu missiya dövlətçiliyimizin ən müasir salnaməsini yazmaq, yazılı medianı tarixi kökləri olan böyük milli-mənəvi sərvət kimi yaşatmaq və sabitliyin müstəsna şərti olan cəmiyyət-dövlət vəhdətinə dəstək verməkdir. Başqa sözlə desək, gündəlik, günaşırı və həftəlik qəzet rəhbərləri olaraq, eyni missiyanın YÜKÜ altındayıq.

Qəzetlərin yeni prinsiplərlə maliyyələşməsinin hazırda hərəkətə gəlmiş yeni mərhələsinin dövlətçilik, peşəkarlıq və sahəvi inkişaf baxımından başqa əhəmiyyətli cəhətləri də var. Yeni mexanizm həvəsləndirici və hamını sabaha yönləndirici potensiala malikdir. Hələlik üç aylıq dövrə hesablanıb.

**Kateqoriyalar, rəsmən də deyildiyi kimi, mütləq və daimi xarakter daşımır, kateqoriyalar üzrə hər bir qəzetin yeri məlum prinsiplər əsasında gələcəkdə dəyişə də bilər. Beləliklə, yeni mexanizmin qəzetlər üçün saxladığı perspektivlər baxımından böyük daxili gücü var. Bu mexanizm daim qəzetlərə üzdə olmaq, irəli getmək üçün sağlam rəqabət atmosferi yaradacaq.**

*Aydın QULİYEV*

# Vyanadan sonra iki liderin dövlət suverenliyi baxımından fərqli davranışı - İlham Əliyev və Paşinyan nümunələri...

**Məlum olduğu kimi, martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Görüşdən sonra iki ölkə başçısının sərgilədiyi siyasət, davranış müqayisə ediləcək dərəcədə diqqəti cəlb edir.**



## ”Paşinyan da ona uyğun olaraq özünü aparır”

## *Məhərrəm Zülfüqarlı: ”Bütün bunlar onu göstərir ki, Ermənistan Rusiyanın ”peşkasıdır”*

Məsələ ondadır ki, görüşdən sonra Prezident İlham Əliyev əsl müstəqil dövlət başçısına xas olan davranış sərgilədi. Paşinyandan fərqli olaraq kiməsə, hansısa dövlət başçısına hesabat vermədi. Danışıqlardan sonra qısa açıqlama verərək ATƏT-in Minsk Qrupunun bəyanatını gözləməyi tövsiyə etdi. Prezident İlham Əliyev bununla böyük siyasi xadim olmaqla yanaşı, güclü bir diplomat olduğunu bir daha sübut etdi.

Ancaq Paşinyan nə etdi? Dərhal Avstriyadakı erməni icması ilə görüşə qaçdı və onlara hesabat verdi. Daha sonra Ermənistanın baş naziri Avstriya paytaxtında danışılanlar haqqında iki nəfəri telefonla məlumatlandırdı. Paşinyan görüşdən sonra Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyana zəng edib. Paşinyan bununla ona inanmayan, ən başlıcası isə ona qarşı münasibətləri yaxşı olmayan separatçıları arxayınlaşdırmağa çalışıb. Məsələnin maraq doğuran tərəfi odur ki, Paşinyan daha sonra Rusiya Prezidenti Vladimir Putinə zəng edib. Dərhal Rusiya Prezidentini aparılan danışıqlarla bağlı məlumatlandırıb. Əslində, Paşinyan bununla göstərir ki, Qarabağ problemi Rusiyanın icazəsi olmadan həll edilə bilməz. Ermənistanda "məxməri inqilab" adıyla hakimiyyət dəyişsə də, Ermənistan satillit dövlət statusundan çıxmaq iradəsində deyil. Daha konkret desək, Paşinyan Putinə zəng etməklə Rusiyadan asılı olduğunu göstərir. Baxmayaraq ki, Paşinyan hakimiyyətə gələndə belə təəssürat yarandı ki, o, Serj Sarkisyan qədər Rusiyanın nökəri olmayacaq. Qərblə Rusiya arasında müəyyən balans saxlayacaq. Ancaq çox keçmədi ki, bütün bu gözləntilər boşa getdi. Paşinyan göstərdi ki, Ermənistan vassal dövlətdir. Bu baxımdan, iki dövlət başçısının fərqli siyasət sərgiləməsini ekspertlər necə şərh edirlər? **Sözügedən məsələni dəyərləndirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, baş verənlər hardasa gözlənilən idi:** "Məsələ ondadır ki, Ermənistandan fərqli olaraq, Azərbaycan müstəqil siyasət yeridir. Bizim dövlətimiz, dövlət başçımız kimdənsə asılı deyil. Eyni zamanda, kiməsə hesabat vermək öhdəliyinə malik deyil. Vyana görüşü bunu bir daha sübut etdi. Ermənistan isə forpost dövlətdir. Forpost olduğu üçün də Paşinyan ona uyğun davranır. Ermənistanda olan strateji müəssisələrin mütləq əksəriyyəti Rusiyanın mülkiyyətidir. Rusiya ordusu bu ölkədə yerləşir. O üzdən, Ermənistan marionet bir dövlət olmağa məhkumdur. Ermənistanda hakimiyyətə kimin gəlməsindən asılı olamayaraq, Rusiya bu ölkəyə öz əyaləti kimi baxır. Rusiya Prezidentinin razılığı olmadan Paşinyan bir addım belə ata bilməz. Dəfələrlə müxtəlif beynəlxalq tədbirlərdə bu özünü göstərib. Bir dəfə Ermənistan dövlət başçılarından biri "ayaqyolu" bəhanəsi ilə danışıqları tərk edib. Arxasınca da Rusiya nümayəndəsi gedib.

Bütün bunlar onu göstərir ki, Ermənistan Rusiyanın "peşkasıdır". Paşinyan da ona uyğun olaraq özünü aparır. Ancaq bunu rəsmi şəkildə bəyan edəndə ermənilər hay-küy salırlar".

***Vidadi ORDAHALLI***

# Azərbaycan "Xalq hərəkatının" içində qırğın başlayıb...

**Bu il yanvarın 26-da sabiq daxili işlər naziri İsgəndər Həmidovun təşəbbüsü ilə Azərbaycan Xalq Hərəkatı adlı qurum yaradılıb.**



***Tural Abbaslı:*** *”...hərəkatın əsasnaməsində bu cür hallara görə xaricedilmə nəzərdə tutulmayıb”*

***Nemət Pənahlı:*** *”Hətta edam hökmünü belə, şəxsi dinlədikdən sonra verirlər”*

Qurumun təsisçiləri sırasında Klassik Xalq Cəbhəsi Partiyası (sədr Mirmahmud Mirəlioğlu), Ümid Partiyası (sədr İqbal Ağazadə), Demokrat Partiyası (sədr Sərdar Cəlaloğlu), Vətəndaş və İnkişaf Partiyası (sədr Əli Əliyev), Ağ Partiya (sədr Tural Abbaslı), Böyük Azərbaycan Partiyası (sədr Elşad Musayev), Milli Dövlətçilik Partiyası (sədr Nemət Pənahlı), Azərbaycan Liberal Demokrat Partiyası (sədr Fuad Əliyev) və başqa partiyalar, sabiq müdafiə naziri Rəhim Qazıyev və digərləri var. Çox maraqlıdır ki, yarandığı gündən indiyə qədər ancaq daxili qalmaqallara başı qarışan AXH-nin həqiqi məqsəd və məramını bilmək mümkün olmayıb. Həmin qurumda baş verən proseslərdən dəqiq bu rəyə gəlmək mümkündür ki, müxalif qüvvələrin indiyə qədər yaratdıqları uğursuz birlik formatlarına biri də əlavə olunacaq. Qurumun daxilində böyük qalmaqala səbəb olan məsələ Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlını Azərbaycan Xalq Hərəkatından uzaqlaşdırmaq istəyindən sonra başlayıb. Hətta bir neçə gün əvvəl bildirildi ki, keçirilən qapalı iclasda Nemət Pənahlı AXH-dən uzaqlaşdırılıb. Bildirilir ki, N.Pənahlının təşkilatdan uzaqlaşdırılmasına onun "qeyri-səmimi davranışları" səbəb olub. Qeyd olunurdu ki, N.Pənahlı son vaxtlar AXCP sədri Əli Kərimli və başqa siyasilərlə gizli danışıqlar, sövdələşmələr içindəymiş və o, AXH rəhbərliyindən xəlvət bu cür proses aparırmış.

Onun bu hərəkətləri AXH-də narahatlıq yaratdığından, martın 25-də keçirilən yığıncaqda N.Pənahlı qurumdan uzaqlaşdırılıb. Lakin N.Pənahlı həmin məlumatı təsdiq etməmişdi. Aprelin 1-də Azərbaycan Xalq Hərəkatının növbəti iclasında isə məlum olub ki, N.Pənahlını məhz həmin gün qurumdan xaric etmək istəyirlər. Ancaq aprelin 1-də keçirilən iclasda ciddi qarşıdurma yaşanıb. Sabiq daxili işlər naziri İsgəndər Həmidov Milli Dövlətçilik Partiyasının sədri N.Pənahlının hərəkatın idarə heyəti üzvlüyündən çıxarılması məsələsini qoyub. AXH-nin dönəm sədri, AĞ Partiya başqanı Tural Abbaslı, VİP sədri Əli Əliyev və keçmiş hərəkatçı Bəxtiyar Tuncay N.Pənahlının çıxarılmasının əleyhinə, digər üzvlər lehinə olublar. Səsvermə nəticəsində N.Pənahlı AXH-dən uzaqlaşdırılıb.

İ.Həmidov bunun ardından T.Abbaslının hərəkatın idarə heyətindən uzaqlaşdırılması təklifini verib. Sabiq nazir arqument kimi T.Abbaslının gənc və yaşlı siyasətçilərlə bağlı verdiyi açıqlamanı və digər partiyalarla görüşməsini göstərib. T.Abbaslı təklifin əleyhinə çıxaraq bunun hərəkatın əsasnaməsinə zidd olduğunu bildirib. İ.Həmidovun təklifi keçməyib və AXH-nin dönəm sədri idarə heyəti üzvü kimi qalıb. Bundan sonra hər iki siyasətçi arasında qarşılıqlı ittihamlar səslənib. T.Abbaslı sabiq naziri hər yerdə hərəkatın adından danışmaqda və həbsdən çıxan sabiq səhiyyə naziri Əli İnsanova "ağsaqqalım" deməkdə ittiham edib. Nəticədə gərginlik daha da artıb və hər iki siyasətçi əlbəyaxa dava həddinə çataraq, üz-üzə belə gəliblər. Üç saat davam edən iclasda gərginlik sona qədər davam edib.

**Ağ Partiya sədri Tural Abbaslı sabiq daxili işlər naziri İ.Həmidovla aralarında baş verən narazılığı belə izah etdi:** "O bildirdi ki, T.Abbaslı hərəkata daxil olmayan partiyaların rəhbərləri ilə görüşlər keçirir, müzakirələr aparır. Sonra dedi ki, guya mən müsahibələrimdə yaşlı siyasətçilərin geri çəkilməsini istəmişəm. Mən də ona cavab olaraq dedim ki, hərəkatın əsasnaməsində bu cür hallara görə xaricedilmə nəzərdə tutulmayıb. Kiminlə görüşürəmsə, qərarı özüm verirəm, hər bir partiya rəhbəri bunu edə bilər. Burada gizli nə var ki? Ağ Partiyanın başqanıyam, hansısa hərəkatın adından çıxış etməyə ehtiyacım yoxdur. Müsahibələrimdə dediyim fikirlər də xaric edilməyimə səbəb ola bilməz. Onun arqumentləri absurd idi, heç cür əsaslandıra da bilmirdi. İsgəndər Həmidovla aramda gərginlik yaşandı. Səsvermə zamanı onun təklifi keçmədi".

T.Abbaslı Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının Xalq Hərəkatından xaric edilməsini belə izah etdi: "Səbəb onun fəaliyyətinin Xalq Hərəkatına ziyan vurması göstərilib. Konkret olaraq fikir bundan ibarət idi ki, ikigedişli fəaliyyət ziyanlıdır, ona görə də N.Pənahlı xaric edilməlidir, bu da səsverməyə çıxarılaraq qəbul olundu. Mən isə bu məsələdə bitərəf qalmışdım".

**Nemət Pənahlı isə "Bakı-Xəbər"ə verdiyi açıqlamada yaxın zamanda bu mövzuda geniş açıqlama verəcəyini bildirdi:** "Hələlik gedən prosesləri cəmiyyətin müzakirəsinə buraxıram. Çünki hər şey çəkilib detallarına qədər ortadadır. İstəyirəm ki, fikirlər aydınlaşsın. Sonra mən öz mövqeyimi ortaya qoyacam. Yarandığı gündən mənim AXH-nin idarə heyətindəki fəaliyyətim göz qabağında olub. Bundan əvvəl mənimlə bağlı müzakirəni qapalı keçirdilər. Həmin iclas o günkündən qat-qat iyrənc idi. Uduşları onda oldu ki, həmin iclasın gedişini xalqdan gizlədə bildilər. Son iclası isə mənim iştirakım olmadan keçirdilər. Bir faktı deyim ki, hətta faşist və bolşeviklər belə addım atmayıblar. Hətta edam hökmünü belə, şəxsi dinlədikdən sonra verirlər. İlahi ədalət hər şeyi öz yerinə qoyur. Əminəm ki, mənim iştirakımla keçirilən birinci toplantı ayın 1-də olan kimi cəmiyyətə təqdim olunsaydı, xalq onları daş-qalaq edərdi. Oradakı qalmaqal da bu səbəbdən yaranıb. Bəzi siyasətçilər mütləq mənada mənim həmin tədbirdə iştirakımın vacibliyini vurğulayırdılar. Əslində, birinci iclası da mənsiz keçirmək istəyirdilər. Sadəcə, etiraz ciddi olub deyə bacarmayıblar. Onlar bilsəydilər ki, zərrə qədər haqlıdırlar, bunu gizli etməzdilər. Mənim qurumdan çıxarılmağımla bağlı sifarişin kimdən gəldiyi barədə yaxın günlərdə açıqlama verəcəm".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ separatizminə qarşı mübarizə - Xüsusi xidmət orqanlarımızın tarixinin bir hissəsi...

**Dağlıq Qarabağ münaqişəsinin gedişində Ermənistanın Azərbaycana qarşı ən müxtəlif təxribatlara, diversiya əməllərinə əl atdığı artıq bütün dünyaya məlum olan faktdır. Amma düşmən ölkə bu səpkidə heç də həmişə bütün bəd niyyətlərinə çata bilməyib. Azərbaycanın xüsusi xidmət orqanlarının çevik, operativ fəaliyyəti əksər hallarda düşmənin məkrli niyyətlərinin qarşısının effektiv şəkildə alınması ilə müşayiət edilib.**

Burada bir məqamı da qeyd edək ki, ermənilərin bəd niyyətlərinin qarşısı son illər ərzində, ümumiyyətlə, tam şəkildə xüsusi xidmət orqanları tərəfindən alınıb. Bu fonda düşmən tərəfə işləyənlər, eləcə də ermənilərin ölkəmizə qarşı digər bəd əməlləri vaxtında neytrallaşdırılıb. Məsələn, elə bir müddət əvvəl məhz xüsusi xidmət orqanlarının effektiv fəaliyyəti sayəsində Fəxrəddin Abbasovun məsuliyyətə cəlb edilməsi bunun daha bir real təsdiqi sayıla bilər. Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidmətində istintaqı aparılan cinayət işi üzrə Fəxrəddin Abbasov Cinayət Məcəlləsinin 281.2 (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək, bu əməllərə görə təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb edilib. Onun Ermənistana səfərləri, özünün də bildirməsinə görə, Ermənistan xüsusi xidmət orqanı əməkdaşı ilə apardığı görüş və əlaqələrinin mahiyyəti, Ermənistanda keçirilən və kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yayımlanan tədbirlərə canlı yayımda qoşularaq Azərbaycan və onun ərazi bütövlüyü əleyhinə etdiyi çağırışlar və digər əlaqəli məsələlərlə bağlı istintaq araşdırmaları xüsusi xidmət orqanlarının mühüm uğurları sırasında yer alır.

Amma aydındır ki, xüsusi xidmət orqanlarının fəaliyyəti ölkəmizin müstəqillik dövründə erməni tərəfinin bəd niyyətlərinin qarşısının alınması baxımından digər çoxsaylı faktlarla kifayət qədər zəngindir. Ümumiyyətlə, Ermənistan tərəfindən Azərbaycana qarşı daim istifadə edilən terrorizm, ekstremizmlə mübarizədə ölkəmizin xüsusi xidmət orqanları mühüm uğurların müəllifdir. Burada xatırlatmaq yerinə düşərdi ki, 1980-ci illərin sonlarından erməni terrorunun geniş vüsət aldığı dönəmdə Azərbaycan yeni müstəqilliyinin ilk illərində çox ciddi terrorizm, ekstremizm, separatçılıq kimi təhlükələrlə üzləşdi. Bu fonda təkcə bir faktı qeyd etmək kifayətdəir ki, 1988-1994-cü illərdə Ermənistan tərəfindən törədilən 373 terror aktı nəticəsində 2 mindən artıq dinc insan həlak olub. Ermənilər çirkin niyyətlərinin həyata keçirilməsində məxfi əməkdaşlığa cəlb edilən şəxslərdən və hərbi əsirlərdən, eləcə də ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələrindən istifadə ediblər. Amma araşdırmalar göstərir ki, əslində, xüsusi xidmət orqanlarının fəaliyyəti olmasa idi, erməni terroru Azərbaycanda daha böyük dəhşət saçardı.

Digər tərəfdən o da faktdır ki, 1990-cı illərin əvvəllərində ermənilərin bəd niyyətlərinə çatmasında həmin vaxt ölkəmizdə baş verən hərc-mərclik, silahlı birləşmələrin mərkəzi hakimiyyətə tabe olmaması, separatçılıq meyllərinin güclənməsi, Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti və o dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi az rol oynamadı. Lakin ölkədə hakimiyyət dəyişikliyindən sonra vəziyyət tam dəyişdi. Erməni separatçılarının, düşmən ölkənin xüsusi orqanlarının, onların əlaltılarının Azərbaycanda qarışıqlıq yaratmağa, təxribatlar törətməyə yönəldilən cəhdlərinin qarşısı Azərbaycan dövlət təhlükəsizlik orqanları tərəfindən qətiyyətlə alındı. Ermənistan da daxil olmaqla, xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi kəşfiyyat, təxribat-pozuculuq fəaliyyəti hallarının aşkar olunması və neytrallaşdırılması baxımından mühüm nailiyyətlər əldə olundu.

Düşmən tərəfindən Azərbaycanın əleyhinə kəşfiyyat-pozuculuq fəaliyyəti tədricən iflasa uğramağa başladı. Elə bu günün özündə də Azərbaycan, o cümlədən onun Silahlı Qüvvələri əleyhinə erməni xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinəqarşı olduqca effektiv mübariəz aparılır. Eyni zamanda, məqsədyönlü əks-kəşfiyyat və antiterror tədbirləri nəticəsində dövlət təhlükəsizliyinə zərər vurmağı, terrorçuluq əməlləri hazırlamağı, qanunsuz olaraq böyük miqdarda odlu silah əldə etməyi və digər cinayətlər törətməyi planlaşdıran terrorçu dəstələr vaxtında ifşa edilir. Bu fonda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar ölkə rəhbərliyinin siyasi kursu üçün əlverişli şəraitin yaradılması mixüsusi xidmət orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindən biridir.

Məhz həmin orqanlar erməni terrorçuluğu ilə uğurla mübarizə aparır, uzun illər boyunca müxtəlif erməni terror qruplaşmalarının üzvlərinin ölkəmizdə terror aktlarının təşkili və ictimai-siyasi sabitliyi pozmaq cəhdlərinin qarşısı alınır. Bunun ən real təsdiqi Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən bir qrup hərbi qulluqçu və mülki şəxslərdən ibarət casus qrupunun aşkarlanması oldu. Bu hal 2016-cı ilin məlum aprel döyüşlərindən sonraya təsadüf edərək, həmin vaxt ordumuzun düşmən üzərində qələbəsinə düşmənin hansısa formada cavab verməsinin qarşısının alınmasında da vacib rol oynadı. Belə ki, o vaxt Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanları tərəfindən Müdafiə Nazirliyinin Tərtər rayonu istiqamətində yerləşən bölmələrinə və yaşayış məntəqələrimizə qarşı genişmiqyaslı təxribat fəaliyyətinin həyata keçirilməsinin planlaşdırıldığı barədə əldə edilmiş məlumat əsasında aparılmış tədbirlər nəticəsində bir qrup hərbi qulluqçu və mülki şəxsin Azərbaycanın suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq düşmən kəşfiyyatçıları ilə məxfi əməkdaşlığa cəlb edildiyi, müxtəlif vaxtlarda maddi maraqları naminə hərbi sirr təşkil edən məlumatları əldə etməklə düşmən tərəfinə ötürdüyü üzə çıxdı. Toplanmış materiallar əsasında dövlətə xəyanət və digər faktlar üzrə Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə cinayət işi başlanıb və xəyanətkarlar layiqli cəzalarına çatdırılıb.

Yaxud da bundan əvvəl xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmiş əks-kəşfiyyat tədbirləri nəticəsində ermənilərə bağlı xüsusi xidmət orqanlarının tapşırığı üzrə Azərbaycan ərazisində casusluq yolu ilə toplanmış məlumatları kiçik ölçülü elektron informasiya daşıyıcılarında Azərbaycandan çıxarmağa çalışan Muxtar Yaqubovun da ələ keçrilməsi daha bir mühüm uğurdur. Məhz bundan irəli gəlir ki, Muxtar Yaqubovun daxil olduğu casus şəbəkəsinin Bakı şəhəri və ölkənin digər ərazilərində fəaliyyət göstərən üzvləri - Azərbaycan vətəndaşları Yaqubov Muxtar Camal oğlu, Əhmədov Şakir Xanlar oğlu, Zeynallı Zəka Abış oğlu, Abbaszadə Səbuhi Oktay oğlu, Nuriyev Xudaşükür Məcid oğlu və Hüseynov Kəmaləddin İsaxan oğlu da ifşa edilərək cinayət məsuliyyətinə cəlb edilib. İstintaq-əməliyyat tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanları ilə qarşılıqlı yazışmalar və ötürülməsi nəzərdə tutulan müxtəlif xarakterli məlumatlar aşkarlanaraq ələ keçirilib, casus şəbəkəsinin xarici xüsusi xidmət orqanlarının tapşırığı üzrə dövlət məmurları, ictimai xadimlər və digər dairələrə nüfuz etmək, Azərbaycan təhlükəsizlik orqanları, Silahlı Qüvvələri, ölkədə aparılan təhlükəsizlik tədbirləri barədə məxfi məlumatları toplamaq istiqamətində fəaliyyət göstərdiyi müəyyən edilib. Amma uğurlu fəaliyyətlə bunun qarşısı alınıb.

Ötən ilin dekabrında isə Dövlət Təhlükəsizliyi Xidmətində başlanmış cinayət işi üzrə keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanları nümayəndələrinin illər ərzində Azərbaycanda çoxmərhələli kəşfiyyat işi, bununla əlaqədar qonşu ölkələrin ərazisində məxfi görüşlərin təşkili və Azərbaycan xüsusi xidmət orqanları əməkdaşlarını fərdi əməkdaşlığa cəlb etməyə istiqamətlənən kanalların qurulmasından ibarət dərin kəşfiyyat işi müfəssəl aşkarlanıb. Bundan sonra aidiyyəti şəxslər casusluq formasında dövlətə xəyanət və digər cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilib, ermənilərə bağlı olduğu istisna edilməyən xarici xüsusi xidmət orqanları əməkdaşlarının kəşfiyyat işi üçün uydurulmuş və həqiqi şəxsiyyətləri, kəşfiyyat metodikaları aşkarlanıb, əməliyyat-kəşfiyyat işləri ilk mənbəyədək ifşa edilərək zərərsizləşdirilib.Aparılan cinayət işi üzrə cinayət əməllərinin törədilməsinə şərait yaradan hallar müəyyən edilib, digər şəxslər müxtəlif cinayət əməllərinə görə məsuliyyətə cəlb edilib, ifşa olunmuş dərin casusluq işi üzrə xarici xüsusi xidmət orqanlarının əldə etdiyi məlumatların mahiyyəti nəzərə alınaraq mümkün nəticələri aradan qaldırılıb. Ümumiyyətlə, bu qəbildən olan faktlar xüsusi xidmət orqanlarının uğurlu fəaliyyətinin real təzahürüdür.

Məhz bu orqnaların fəaliyyəti sayəsində mürəkkəb geosiyasi mövqedə yerləşməsinə baxmayaraq, bu gün Azərbaycan nəinki regionun, hətta dünyanın ən sabit və dinamik inkişaf edən ölkələrindən biridir. Bu gün Azərbaycanın xüsusi xidmət orqanları müstəqil dövlətimizin təhlükəsizliyinin, vətəndaşlarımızın hüquq və azadlıqlarının, ölkəmizin ərazi bütövlüyünün qorunması sahəsində üzərinə düşən məsul vəzifələri layiqincə davam etdirir. Bu fonda Dağlıq Qarabağ münaqişəsində xüsusi xidmət orqanlarının əməkdaşları yenə fədakarlıqlar göstərir, əsl vətənpərvərlik nümayiş etdirirlər. Bütün bunlar isə ermənilər və Azərbaycana qarış olan digər şər qüvvələrin vaxtında neytrallışdırılmasına gətirib çıxarır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

BAKI XƏBƏR 8 3 aprel 2019 № 58 (3956)



# İlham Əliyevin Qars və İqdırda bələdiyyə seçkisi ilə nə bağlılığı - ermənilərin yeni təxribatı...

**Ermənistan mətbuatı ənənəvi böhtan kampaniyasını bu dəfə Türkiyədə keçirilən bələdiyyə seçkilərinin üzərindən etməyə çalışır. Bu xüsusda onlar qeyd edirlər ki, guya Azərbaycanla həmsərhəd olan İqdır və Qars kimi şəhərlərdə seçkinin nəticəsi Bakı ilə əvvəlcədən razılaşdırılır.**




*"AKP-nin həmin bölgədən namizəd irəli sürməməsi hakim partiyanın MHP ilə eyni ittifaqda seçkiyə qatılması ilə bağlıdır"*

## *Samir Adıgözəlli: "Erməni diasporunun həmin bölgədə çox aktiv fəaliyyət apardığını dəfələrlə vurğulamışıq"*

Bildirilir ki, guya İlham Əliyevin istəyilə Ərdoğan həmin əyalətlərdə öz partiyasından namizəd irəli sürməyib və həmin yerlərdə millətçilərin qalib gəlməsini istəyib. Erməni mətbuatı bunun səbəbini onunla izah edir ki, Azərbaycan bu gedişlə Naxçıvanla Türkiyəyə yaxın olan əyalətlərdə demoqrafik vəziyyəti dəyişməkdə, xüsusilə də kürdlərin sıxışdırılmasında maraqlıdır. Göründüyü kimi, erməni KİV-i yenidən İlham Əliyevin ünvanına əsası olmayan ittiham səsləndirir. Ən başlıcası isə onu qardaş ölkədə keçirilən seçki prosesinə müdaxilə etməklə əlaqələndirməyə çalışır.

**İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırma Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər" bildirdi ki, bu məsələdə ermənilərin məqsədləri bəllidir:** "Biz həmin bölgə ilə sıx təmasda işləyirik. Mütəmadi olaraq Qars və İqdırda tədbirlər keçirmişik, müxtəlif layihələr icra etmişik. Erməni diasporunun həmin bölgədə çox aktiv fəaliyyət apardığını dəfələrlə vurğulamışıq. Ermənistan dövlət səviyyəsində məhz Türkiyənin həmin ərazilərinin onlara məxsus olduğu iddiasını irəli sürür. Hətta onların dövlər rəmzlərində belə Ağrı dağının rəsmi var. Buna görə də ermənilərin bu istiqamətdəki pozucu fəaliyyəti bizə qəribə gəlməməlidir. Ora bizim üçün də strateji əhəmiyyət daşıyır. Təbii ki, ermənilərin istəyinin həyata keçməsinə yol verməməliyik. Cənab İlham Əliyev təcrübəli dövlət adamıdır.

O heç vaxt başqa ölkənin daxili işinə qarışmaz. Bu onların böhtanına verilən birinci cavab. AKP-nin həmin bölgədən namizəd irəli sürməməsinə gəldikdə isə, bu, hakim partiyanın MHP ilə eyni ittifaqda seçkiyə qatılması ilə bağlıdır. Qars və İqdırda MHP güclü olduğu üçün, AKP oradan namizəd verməyib. Başqa bölgələrdə isə MHP AKP-yə yönəlik belə jestlər edib. Hər iki şəhərdə HDP-nin namizədi qalib gəlib.

**Bu səbəbdən də ermənilər belə yazıları verməklə kürdləri digər millətlərin üstünə qızışdırmaq niyyətini ortaya qoyurlar. Seçkilər göstərdi ki, Türkiyədəki demokratiya lazım olan səviyyədədir. Bu səbəbdən də seçkilərə əvvəlcədən müdaxilə yolverilməzdir. Bu faktların özü ermənilərin növbəti yalanını ifşa etmiş olur".**

***Məhəmmədəli QƏRİBLİ***

# "Şimal axını" və "Türk axını" çətinlikdə, Azərbaycan qazına yeni şans - Sloveniyanın sabiq prezidentinin maraqlı bəyanatı...

**Avropanın enerji bazarında mövqelərini gücləndirməyə çalışan Rusiya üçün hazırda mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri "Şimal axını-2" layihəsini reallaşdırmaq, "Türk axını" kəmərini Yunanıstandan keçirməklə digər Qərb ölkələrinə kimi uzatmaqdır. Amma görünən budur ki, hər iki kəmərlə bağlı Kreml ciddi çətinliklərlə üzləşib.**




Əvvəla, "Türk axını" ilə əlaqədar Avropa İttifaqı Rusiyaya hansısa zəmanət vermir. Elə bu səbəbdən kəmərin perspektivdə Türkiyədən Avropaya uzanması ciddi sual altına düşüb.

"Şimal axını-2" ilə bğalı da məsələ getdikcə qəlizləşir. Xüsusən də Danimarkanın ekoloji standartlarla bağlı mövqeyi Rusiya üçün ciddi problemlər yaradır. Elə "Moody"s" beynəlxalq reytinq agentliyi də bildirib ki, Danimarkanın ekoloji standartlarla bağlı tələbi "Şimal axını-2" layihəsinə ciddi əngəl ola bilər. Agentliyin Rusiya və MDB ölkələrinin neft-qaz sektoru üzrə aparıcı analitiki Denis Perevezentsevin sözlərinə görə, ötən həftə Danimarka Energetika Agentliyinin "Nord Stream 2 AG" şirkətindən Bornholm adasının cənubundakı iqtisadi zonada qaz kəmərinin ekologiyaya təsiri ilə bağlı hesabat istəməsi sözügedən layihənin vaxtında başa çatdırılması üçün ciddi maneə yaradacaq. Həmin zona adanın cənubunda və Danimarkanın ərazi sularında yerləşir.

Beləliklə, "Şimal axını-2" layihəsinə ikinci alternativ marşrut seçmək təklif edilib. Analitik reytinq şirkəti hesab edir ki, bu tələb "Qazprom" üçün mənfi amildir və qaz kəmərinin nəzərdə tutulan müddətdə istifadəyə verilməsini sual altında qoyur. Plana görə, "Şimal axını-2" boru xəttinin cari ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulurdu. Ekspert bildirib ki, yeni marşrutun seçilməsi bir neçə ay davam edə bilər. Bundan başqa, Danimarka sularında boru kəmərlərinin çəkilməsi də iki-üç ay vaxt aparacaq. D.Perevezentsev hesab edir ki, istifadəyə verilmə müddətinin gecikdirilməsi tranzit üzrə danışıqlarda "Qazprom"un mövqeyini zəiflədəcək: "Yeni tələblər təbii qazın Ukrayna ərazisindən tranziti öhdəliklərini illik 40-50 milyard kubmetr artıra bilər. Bu, əvvəllər nəzərdə tutulduğundan xeyli çoxdur. Nəticədə tranzit xərcləri "Şimal axını-2" marşrutu ilə planlaşdırılandan daha yüksək olacaq".

Xatırladaq ki, Avropa Parlamenti də "Şimal axını-2"yə qarşı qətnamə qəbul edib. ABŞ isə birmənalı şəkildə bu layihəyə qarış çıxır. ABŞ-ın energetika naziri Rik Perri bildirir ki, Rusiyanın "Şimal axını-2" və "Türk axını" qaz boru kəmərləri zərərli təsirlərin vasitəsidir: "Rusiya tez-tez AB və ABŞ-a qarşı zərərli taktikalarından istifadə edərək birliyimizə zərər verir. Rusiya enerji bazarı üzərindəki təsirindən yararlanaraq siyasi hədəflərini gücləndirməyə davam edir. Qaz kəmərləri də bu taktikaya xidmət edir".

Xatırladaq ki, "Şimal axını-2" illik 55 milyard kubmetr qazın nəqlini həyata keçirəcək boru kəmərinin Baltik dənizi ilə çəkilməsini nəzərdə tutur. Boru xətti Rusiya, Finlandiya, İsveç, Danimarka və Almaniyanın ərazi və ya müstəsna iqtisadi zonalarından keçməlidir. Adıçəkilən ölkələrdən yalnız Danimarka tikinti işlərinin aparılmasına icazə verməyib.

İndi yaranmış durumda ilin sonunda Avropaya qaz nəql etməyi planlaşdıran Azərbaycannın Qərb enerji bazarında mövqelərinin daha da möhkəmlənməsi gözlənilir. Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger də vurğulayır ki, Azərbaycan qazının yaxın gələcəkdə Avropa İttifaqına çatmasını səbirsizliklə gözləyirlər: "Azərbaycan qazı TANAP vasitəsilə artıq buradan Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdəAvropa İttifaqına çatmasını səbirsizliklə gözləyirik. Avropa İttifaqı "Cənub Qaz Dəhlizi" layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcək. Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcək".

Real vəziyyətdə Rusiyanın "Şimal axını-2" layihəsi ilə gözlənilməz dəyişikliklər fonunda Şərqi Avropa ölkələri Azərbaycanın "Cənub Qaz Dəhlizi"nə getdikcə daha çox maraq göstərirlər. Onu da qeyd edək ki, Azərbaycan Qədim Qitənin enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayacaq, çünki təkcə tədarükçü kimi yox, həm də ilk olaraq Türkmənistan qazının tranzit ölkəsi kimi çıxış edəcək. Perspektivdə bura İran qazının da daxil edilməsi gözlənilir. Sloveniyanın sabiq prezidenti Danilo Turk da vurğulayır ki, "Cənub Qaz Dəhlizi" layihəsinə Avropada münasibət çox yüksəkdir: "TAP-TANAP və bütövlükdə "Cənub Qaz Dəhlizi" Avropa üçün çox mühümdür. Sloveniya Avropaya qazın çatdırılması üzrə bu layihəyə, marşrutun daha cənub istiqamətindən keçdiyi üçün qoşulmayıb. Onda Türkiyə, Yunanıstan, Albaniya və Cənubi İtaliya iştirak edir. Sloveniya isə İtaliyanın şimal hissəsinə daha yaxındır. Amma kim bilir, bəlkə gələcəkdə bu boru kəmərinin əhəmiyyəti artacaq. İndi onlar Sloveniyanın cənubundakı ölkələrdən keçir, lakin gələcəkdə bizim də onlara maraq göstərəcəyimiz istisna deyil. Biz Sloveniyanın şimalından və cənubundan hansı qaz kəmərlərinin keçdiyinə biganə deyilik. Hazırda biz qazı Rusiyadan Avstriyadan tranzit keçməklə, eləcə də İtaliya vasitəsi ilə Əlcəzairdən alırıq. İndi isə cənub istiqamətindən Avropaya Azərbaycan qazı gələcək. Təbii ki, bu, Avropada qaz bazarının ümumi mənzərəsinə təsir edən yeni bir amil olacaq. Biz qaz tədarükünün şaxələndirilməsində maraqlıyıq və bu strateji kontekstdə "Cənub Qaz Dəhlizi"nin tətbiqi Sloveniya üçün vacibdir".

***Tahir TAĞIYEV***

# İlham Əliyevlə Paşinyanın Vyana görüşündən qabaq Ermənistan XİN başçısının qapalı Moskva səfərinin sirri bilindi

*Rusiya erməni oyununa uymadı, Paşinyanın Mnatsakanyandan ürəyi qırıldı, Vyanadan sonra Ermənistan elitasının yasa batması səbəbsiz deyilmiş...*

**Azərbaycan və Ermənistan rəhbərliyi arasında ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Vyanada təşkil olunan görüş işğalçı ölkədə geniş rezonans doğurmaqda davam edir. Görüşün nəticələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, Vyana danışıqları Qarabağ münaqişənin həlli ilə bağlı danışıqlara yeni təkan verib.**

Onu da xatırladaq ki, görüşün nəticələrindən biri olaraq Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən, yəni "3+2" formatında birgə bəyanat qəbul olunub. Bu bəyanatda da danışıqlar prosesinin əsas məsələləri, substantiv məqamlar barədə geniş fikir mübadiləsinin aparıldığı qeyd olunur, həmçinin sülh prosesinin irəli aparılması üçün münbit şəraitin yaradılmasının vacibliyi vurğulanır. Bəyanatda qeyd olunur: "Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Vyanada ATƏT-in Minsk Qrupunun həmsədrlərinin himayəsi altında görüşüblər. Görüşdə, həmçinin, xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik iştirak edib".

Bildirilir ki, görüş müsbət və konstruktiv şəraitdə keçib və iki liderə öz mövqelərini aydınlaşdırmağa imkan verib: "Onlar nizamlama prosesinin bir sıra əsas məsələləri və danışıqların gedişatının mahiyyəti üzrə fikir mübadiləsi aparıblar. Hər iki lider sülhə xidmət edən şəraitin yaradılmasının və danışıqlar prosesində münaqişənin sülh yolu ilə həllinin tapılması üçün daha konkret və təsirli tədbirlərin görülməsinin vacibliyini vurğulayıb. Düşənbədə söhbətlərini yada salan liderlər atəşkəsin möhkəmləndirilməsi və birbaşa ünsiyyət mexanizminin təkmilləşdirilməsinin zəruriliyini bir daha təsdiqləyiblər. Onlar, həmçinin, humanitar sahədə bir sıra tədbirləri işlənib hazırlanması barədə razılığa gəliblər". Qeyd olunub ki, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri xarici işlər nazirlərinə yaxın gələcəkdə həmsədrlərlə görüşməyi tapşırıblar: "Onlar, həmçinin, birbaşa dialoqu davam etdirməyə razılaşıblar".

Azərbaycan tərəfinin bu bəyanatla bağlı hansısa problemi olmasa da, Ermənistanda vəziyyət fərqlidir. Söhbət ondan gedir ki, məhz bu bəyanat fonunda İrəvan Bakıya növbəti dəfə məğlub olduğunu nümayiş etdirir. Xatırladaq ki, bundan əvvəl martın 9-da da Minsk Qrupunun yaydığı bəyanat Ermənistan üçün ciddi diplomatik məğlubiyyət kimi dəyərləndirilib. Həmin bəyanatda da Qarabağ danışıqlarında format dəyişikliyinin əleyhinə çıxılıb. Bu bəyanatdan sonra baş tutan Vyana görüşündə Azərbaycan və Ermənistanın münaqişə tərəfləri olaraq müzakirə aparması da məsələ ətrafında məhz Bakının mövqeyinin qəbul olunduğunu göstərir. Ermənistanın "Past" qəzeti etibarlı mənbələrinə istinadən yazır ki, belə vəziyyət İrəvanda ciddi çaxnaşma yaradıb: "Məsələ burasındadır ki, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Vyanada Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən ilk rəsmi görüşün yekununa dair ATƏT-in Minsk Qrupu həmsədrlərinin birgə bəyanatının mətninə Paşinyanın əvvəlcədən təlimatlandırdığı bəzi məlumatların salınmasına cəhd edib. Lakin buna nail ola bilməyib. 22 martda Moskvaya məxfi səfəri zamanı Mnatsakanyanın Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovla görüşməsi də bununla bağlı idi. Orada Mnatsakanyan rusiyalı həmsədrin köməyi ilə birgə bəyanatın mətninə bəzi yumşaldıcı və Ermənistan üçün daha məqbul tezislərin salınmasına çalışıb. Çünki hamıya bəllidir ki, bu cür bəyanatların mətnləri əvvəlcədən hazırlanır, amma nəticəsiz olur". Qeyd olunur ki, nəticədə, Ermənistanın baş naziri Nikol Paşinyan tapşırığın öhdəsindən gələ bilməyən Mnatsakanyandan olduqca narazı qalıb: "Mənbələrimizin sözlərinə görə, daxili "mətbəxdə" hesab edirlər ki, Mnatsakanyan ilk ciddi imtahandan "kəsilib".



"Çiçəklənən Ermənistan" fraksiyasının sədri, millət vəkili Edmond Marukyan Vyanada baş tutan görüşdə ölkəsinin yenə uduzan tərəf olduğunu vurğulayır. Oörüşdən qaranlıq qalan məqamlar da var: "Bəzi suallar var ki, onlar cavabsız qaldı. Erməni tərəfinin gündəliyi, üç prinsip və altı element haqda informasiyalar yoxdur. Biz bilmək istəyirik ki, bunlar aktualdır, ya yox". Ermənistan parlamentinin üzvü Qarabağ probleminin həlli ilə bağlı danışıqlar prosesinin yeni element və prinsiplərini inkişaf etdirmək alternativini istisna etməyib: "Lakin unutmamalıyıq ki, bu prinsiplər Helsinki Yekun Aktına əsaslanmalıdır. Yəni özək dəyişməzdir, beynəlxalq hüquq dəyişməyəcək". Onun fikrincə, proses yenilənir və bu açılmazdır, çünki Ermənistanın danışıqlar prosesinə təsir göstərə bilməyəcəyi bir çox yeni yanaşmalar var. Vyana görüşündən sonra xalqların sülhə hazırlaşdırılmasına dair addımlar atmaq üçün lazım olan ehtiyaclara gəldikdə, deputat yalnız bir yol görür: sərhəddə uzunmüddətli sülh. Amma bunun üçün Azərbaycanla razılaşmanın vacibliyini də etiraf edir.

***Nahid SALAYEV***

# Ermənistan Qars və İqdıra açıq ərazi iddiasını ortaya qoydu...

**Məhəmməd Əsədullazadə:** *"Ermənilərin Qars və İqdıra yönəlik yeni ərazi iddialarına sərt reaksiya verilməlidir"*

**Ermənilər zaman-zaman qonşu dövlətlərə ərazi iddiaları ilə çıxış ediblər. Azərbaycan ərazilərini işğal edən Ermənistanın indinin özündə də Türkiyə və Gürcüstana yönəlik ərazi iddiaları var. Bu arada erməni mətbuatı Türkiyədə keçirilən bələdiyyə seçkilərini və onun nəticələrini böyük maraqla izləyir.**




*"Unudurlar ki,Türkiyə böyük oyunları pozan və bu çirkin planları məhv edən bir ölkədir"*

Hakim AKP-nin İstanbul və Ankarada keçirilən bələdiyyə seçkilərində məğlub olmasını erməni mətbuatı böyük sevinclə qarşılayıb. Ermənilərin maraq dairəsində olan Türkiyə ərazilərindən biri də Qars və İqdır şəhərləridir. Qarsda və İqdırda kürd əsilli namizədlərin qalib gəlməsindən sevinən erməni mətbuatı həmin vilayətlərin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış edib.

Erməni mediası həyasızcasına iddia edir ki, guya Qars və İqdır 1921-ci ildə imzalanan Moskva müqaviləsinə görə qanunsuz olaraq Türkiyənin bir hissəsi olub. Həmçinin, guya Türkiyə Moskvanın dəstəyilə Yaxın Şərqdəki kürdlərə qarşı təzyiqlər həyata keçirir, türk-rus tandemi ermənilərə qarşı siyasət aparır. Guya sözügedən vilayətlərdə kürdlərin sıxışdırılmasının, "genosidə" məruz qalmasının qarşısını almaq, Azərbaycanın oradakı təsirini minimuma endirmək, demoqrafik balansın qorunması üçün yeganə çıxış yolu Qars və İqdırın Ermənistana birləşdirilməsidir. Bir sözlə, ermənilər Türkiyəyə qarşı açıq-aşkar, beynəlxalq hüquqa zidd olaraq yeni ərazi iddiaları ilə çıxış edir və bunu açıq şəkildə bəyan etməkdən çəkinmirlər. Sözügedən fikirlər Ermənistanın Türkiyəyə qarşı yeni ərazi iddiaları ilə çıxış etməsinin əyani göstəricisidir. O üzdən, bunu ekspertlər necə şərh edirlər?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə bunu kəskin tənqid etdi:** "Ermənistan Azərbaycana qarşı olduğu kimi, Türkiyəyə də ərazi iddiası irəli sürür. Hətta ölkə konstitusiyasında və gerbində Türkiyənin şərq vilayətləri Ermənistan ərazisi kimi göstərilir. Göründüyü kimi, İrəvan bu işğal siyasətini "qanuniləşdirməklə" işğalı dövlət siyasətinin tərkib hissəsinə çevirib. İqdır və Qarsda azərbaycanlılarla yanaşı, etnik kürdlər də yaşayır. Məhz Ermənistan PKK tərəfdarlarına dəstək verməklə burada yaşayan kürdləri öz ətrafına çəkməyi planlayır. Bu planın alt qatında Erməni Eçmiədzin və Apostol kilsəsi dayanır. Onlar bu yöndə ideoloji iş aparmaqla müəyyən hədəflərə çatmaq istəyirlər. Ümid edirlər ki, Türkiyə zəifləyəcəyi təqdirdə bu işğalı reallaşdırmaq mümkün olacaq. Həqiqətən də ermənilər pusqudadırlar. Məsələ ondadır ki, təcrid vəziyyətində olsalar da, bu gün Türkiyəyə yönəlik ərazi iddialarından əl çəkmirlər. Mənfurcasına türk kimliyinə qarşı savaşı bir an belə dayandırmırlar. Onlar hesab edirlər ki, bununla istəklərinə nail olacaqlar. Ancaq əsla bu mümkün olmayacaq. Hazırda Türkiyə regionun güclü ölkəsidir. Ermənistanın bu siyasəti, demək olar ki, heç vaxt reallaşmayacaq. Qeyd edim ki, mənfur qonşularımız nə qədər çalışsalar da, Türkiyə-Azərbaycan birliyinə qalib gələ bilməyəcəklər. İrəvanda düşünürlər ki, bu avantürist siyasəti davam etdirməklə böyük dövlətlərin maraqlarını özlərinə cəlb edəcəklər. Unudurlar ki, Türkiyə böyük oyunları pozan və bu çirkin planları məhv edən bir ölkədir. Ona görə də Ermənistanın kürd amilindən istifadə etməsi reallaşmayacaq. Ermənistan bunu bacara bilməz. Bu gün Türkiyənin müstəqil siyasəti Ermənistanı narahat edir. Bütün bunlarla yanaşı, ermənilərin Qars və İqdıra yönəlik yeni ərazi iddialarına sərt reaksiya verilməlidir. Eyni zamanda, Ermənistanın işğalçılıq siyasəti ifşa edilməlidir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda 14 sosial müavinət, 7 Prezident təqaüdü və iki yeni təqaüd - əvvəl nə qədər idi, indi nə qədər oldu...

**Məlum olduğu kimi, aprelin 1-dən 14 kateqoriya üzrə sosial müavinətlər və 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırılıb. Həmçinin, 2 kateqoriya üzrə yeni Prezident təqaüdləri təsis edilib. Onu da qeyd edək ki, ayrı-ayrı kateqoriyalar üzrə yeni Prezident təqaüdləri də təsis edilib.**



Hansı ki, əvvəllər belə təqaüdlər yox idi. Ümumilikdə, 576,8 min nəfərin sosial müavinətləri və Prezidentin aylıq təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb. Aşağıdakı müqayisəli rəqəmlərə baxsaq görərik ki, ortada nə qədər böyük fərq var. Yəni əvvəl sözügedən kateqoriyalar üzrə vətəndaşlar nə qədər alırdılar, aprelin 1-dən sonra nə qədər alacaqlar?

Sərəncama uyğun olaraq, sosial müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 82 manatdan, müharibə əlilləri üçün 101 manatdan, "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 94 manatdan) 150 manata, II qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 61 manatdan, müharibə əlilləri, "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 81 manatdan) 130 manata, III qrup əlilliyə görə isə (ümumi səbəblərdən əlillər üçün 52 manatdan, müharibə əlilləri üçün 73 manatdan və "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 61 manatdan) 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılıb. Həmçinin, sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata qaldırılıb.

Onu da qeyd edək ki, sərəncam, eyni zamanda, Prezident təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə səbəb olub.

Sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi yer alıb. Habelə müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, o cümlədən, döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Dövlət başçısının sərəncamı ilə müharibə əlillərinə də Prezidentin təqaüdünün məbləğinin I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılması təmin ediləcək. Həmçinin, sənəddə əlillik, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Prezidentin təqaüdünün əmək pensiyası almaq hüququ olan I qrup əlillərə (gözdən əlillər istisna olmaqla) də şamil olunması və bu təqaüdün məbləğinin 73 manatdan 100 manata çatdırılması nəzərdə tutulur. 1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçılarına, İkinci Dünya Müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Prezident təqaüdünün məbləği aprelin 1-nə qədər 121 manat idisə, sözügedən rəqəm 150 manata çatdırılıb.

**Göründüyü kimi, 14 kateqoriya üzrə sosial müavinətlər və 7 kateqoriya üzrə Prezident təqaüdləri xeyli artırılıb. Elə sosial müavinətlər var ki, 2 dəfədən çox artıb. Bütün bunlar əhalinin, o cümlədən, cəmiyyətin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş addımlardır.**

***Vidadi ORDAHALLI***

# Bələdiyyə seçkiləri qardaş Türkiyənin sonrakı daxili həyatında hansı proseslərin əsasını qoydu...

***Zərdüşt Əlizadə:** "Bu rəqabətdən qazanan Türkiyə və onun vətəndaşı olacaq"*

**Bizim də böyük maraqla izlədiyimiz Türkiyədə keçirilən bələdiyyə seçkilərinin nəticələri, demək olar ki, tam bəllidir. Seçkinin ümumi nəticələrini sadə sözlə belə izah etmək olar. Ümumi nəticələrdə hakim partiya qalib gəlsə də, müxalifətin nəticələri həmin cəbhədə böyük canlanmanın olmasından xəbər verir.**



*"Seçkiləri saxtalaşdırmaq kimi imkanlar adətən icra qurumlarını əlində saxlayan siyasi qüvvədə olur"*

Məlum olduğu kimi, ümumilikdə, ölkə üzrə AKP ilə MHP-nin birləşdiyi "Cümhur İttifaqı" 51 faiz, CHP, İYİ və "Səadət" partiyalarının təmsil olunduğu "Millət İttifaqı" isə 37 faiz səs toplayıb. Baxmayaraq ki, bundan əvvəlki bələdiyyə seçkilərində də hakim AKP ilə müxalif CHP arasındakı səs fərqi təxminən eyni nisbətdə (43 faiz AKP, 26 faiz CHP) olub, Türkiyədə son seçkinin qalibi kimi daha çox CHP qəbul olunur. Bu da sözsüz ki, 4 böyük şəhərdə məhz CHP-nin qalib gəlməsilə əlaqədardır. Ən maraqlı məqam isə budur ki, AKP-nin tanınmış siması olan Binəli Yıldırım İstanbulda müxalif namizədə uduzdu.

Xatırladaq ki, CHP sədri Kamal Kılıçdaroğlu seçkidən əvvəl "İstanbul, Ankara, Bursa, Antalya, Denizli və Adananı alacağıq, gərəkli dərsi verəcəyik" demişdi. Partiya liderinin dedikləri Bursanı çıxmaqla, 5 böyük şəhər üzrə öz təsdiqini tapdı. Hakim partiya xüsusilə də böyük şəhərlərdəki məğlubiyyəti ilə barışmaq istəmir. Onlar açıq şəkildə iddia edirlər ki, məhz həmin şəhərlərdə saxtakarlıq olub, səslər oğurlanıb. Maraqlı yanaşmadır. Adətən görünüb ki, daha çox hakimiyyətdə olan partiyanı seçkini saxtalaşdırmaqda ittiham edirlər. Çünki saxtakarlıq etmək üçün əldə resurs olmalıdır ki, bu da müxalifətdən çox iqtidarın əlində cəmləşir.

Türkiyənin Yüksək Seçki Komissiyasının sədri Sədi Güvən seçki nəticələri ilə bağlı son açıqlamasında bunları deyib: "Keçici nəticələr siyasi partiyalarla bölüşdürülüb. Dünəndən etibarən də etiraz (şikayət) prosesi başlayıb, davam edir. Etirazı olmayan yerlərdə qərarlar veriləcək".

Şikayətlərin olmasına eyham edilirsə, AKP böyük şəhərlərlə bağlı bunun olduğunu gizlətmir. Ümumən gərgin atmosferdə keçən bələdiyyə seçkiləri Türkiyədaxili siyasi proseslərə necə təsir göstərəcək?

**Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, seçkinin Türkyənin daxilindəki siyasi proseslərə müsbət təsiri olacaq:** "Kəskin, ciddi rəqabət göstərir ki, ölkədə demokratiya var. Hakim partiyanın liderlərindən başqa liderlər də mövcuddur. Bu rəqabət hakim partiyanı xalqın istək və tələblərini yerinə yetirməyə məcbur edəcək. Bu göstərir ki, Türkiyə demokratiyası sabitdir. Min əhsən olsun ki, Ərdoğan seçki prosesinə müdaxilə etmədi. İmkan verdi ki, ölkədə demokratik seçki keçirilsin. Sevindiricidir ki, Türkiyədə belə güclü müxalif siyasi partiyalar mövcuddur. Bu rəqabətdən qazanan Türkiyə və onun vətəndaşı olacaq".

Müxalifətin böyük şəhərlərdə qalib gəlməsini isə politoloq belə izah etdi: "Ərdoğanın siyasi bazasının böyük əksəriyyətinin əyalətlərdə olduğuna bağlıdır. Böyük şəhərlərdə isə bir qədər geniş dünyagörüşlü, müasir, savadlı insanlar yaşayırlar. Həmin savadlı elektorat görür ki, Ərdoğanın yürütdüyü siyasət onlar üçün o qədər də məqbul deyil. Ona görə də müxalifət liderləri həmin elektoratı öz ətrafına çəkə bilir. Burada qəribə nəsə yoxdur".

Hakim partiyanın böyük şəhərlərdə səslərin oğurlandığı ilə bağlı səsləndirdiyi iddiaları isə Zərdüşt Əlizadə absurd adlandırdı: "Seçkiləri saxtalaşdırmaq kimi imkanlar adətən icra qurumlarını əlində saxlayan siyasi qüvvədə olur. Müxalifət belə imkandan məhrumdur. Əgər Türkiyədə müxalifət bunu bacarıbsa, onda gör hakim partiya nə dərəcədə zəif və monolit deyil. Buna inanmaq lazım deyil. Məhz Ankara və İstanbulda səslər arasındakı fərq çox cüzidir. Bunun özü halal seçkinin keçirildiyinin göstəricisidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın milli qəhrəmanları arasında 10-dan çox qeyri-azərbaycanlı, hətta Azərbaycanda doğulmayanlar var

**Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanlar arasında milliyyətcə azərbaycanlı olmayanlar da çoxdur. Onlar doğulub boya-başa çatdıqları ana vətənin düşmənindən müdafiə olunmasında canlarından, həyatlarından keçiblər. Hətta Qarabağ müharibəsində şəhid olan və ölümündən sonra Milli Qəhrəman adına layiq görülən şəhidlər sırasında keçmiş SSRİ respublikalarında doğulan qeyri-azərbaycanlılar da var.**





***Elşən Uluxanlı:** "Onların bir çoxu Azərbaycan vətəndaşı olmasa da, bizim torpaqlarımızın müdafiəsi uğrunda şəhid olub"*

***Vüqar Əsgərov:** "Bu milli qəhrəmanların hər biri Azərbaycan xalqının qəlbində özünə böyük abidə ucaldıb"*

Onları bizim torpaqların müdafiəsinə xalqımıza olan böyük sevgi və ehtiram çəkib gətirib. Azərbaycan torpaqları uğrunda qəhrəmanlıqla həlak olan Aqarunov Albert Aqarunoviçin, Aznaurov İsgəndər Söhrab oğlunun, Davidoviç Anatoli Nikolayeviçin, Karlov Yevgeni Nikolayeviçin, Kovalyov Yuri Petroviçin, Makeyev İqor Vladimiroviçin, Polovinko Ruslan Aleksandroviçin, Senyuşkin Sergey Aleksandroviçin, Seryogin Viktor Vasilyeviçin, Slesaryov Mixail Aleksandroviçin (Mixail Slesaryov 12 aprel 2014-cü ildə vəfat edib) adlarını çox böyük hörmət və ehtiramla xatırlayırıq.

Qeyd edək ki, Aqarunov Albert Aqarunoviç 1969-cu il aprelin 25-də Bakının Əmircan qəsəbəsində yəhudi ailəsində anadan olub. Qarabağ müharibəsi başlayarkən cəbhəyə könüllü gedib. O, 8 may 1992-cu ildə Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gəlib və döyüş meydanında şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli, 833 saylı Fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb, 2016-cı ildə isə Milli Qəhrəman ölümündən sonra "Həzi Aslanov" ordeni ilə təltif edilib.

Davidoviç Anatoli Nikolayeviç 28 mart 1965-ci ildə Belarus Respublikasının Minsk vilayətinin Kapıl rayonunun Skabin kəndində hərbçi ailəsində dünyaya göz açıb. 1991-ci ilin iyununadək SSRİ, sonra isə MDB ordusunda xidmət edib. Mayor hərbi rütbəsinə yüksələn Anatoli sonrakı həyatını Azərbaycan Ordusu ilə bağlayıb.

Davidoviç Anatoli Nikolayeviç 3 iyun 1992-ci ildə həlak olub, Belarus Respublikasının Slutsk şəhərində dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 3 iyul 1992-ci il tarixli, 24 saylı Fərmanı ilə mayor Davidoviç Anatoli Nikolayeviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Gəncədə küçələrdən birinə mayor Nikoloyeviçin adı verilib.

"Topçu İsgəndər" kimi adını tariximizə yazan Aznaurov İsgəndər Söhrab oğlu 16 avqust 1956-cı ildə Özbəkistannın Buxara vilayətinin Qala-Asiya kəndində axısqa türkü ailəsində dünyaya gəlib. 1989-cu ildə Özbəkistanın Fərqanə vadisindəki qanlı olaylardan sonra yüz minlərlə axısqa türkü kimi oranı tərk etməyə məcbur olub və 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycanın Şəmkir rayonunun Kür qəsəbəsinə köçüb.

Erməni işğalçılarının Azərbaycan torpaqlarına basqınları başlayanda İsgəndər Aznaurov 1992-ci ilin aprelində könüllü olaraq yeni yaranmaqda olan Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qoşulub.

1993-cü il 18 apreldə döyüşlərin ən qızğın hissəsinə yollanan Aznaurov orada gedən atışmalar zamanı qəhrəmancasına həlak olub, Bakının Şəhidlər Xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli, 262 saylı Fərmanı ilə baş leytenant Aznaurov İsgəndər Söhrab oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb,

İqor Makeyev 27 oktyabr 1971-ci ildə Gəncə şəhərində fəhlə ailəsində anadan olub. 1992-ci il 5 iyun tarixində ermənilər Naxçıvanlı kəndinə hücuma keçmişdilər. İqor burada onlarla erməni yaraqlısını məhv edib, ermənilər kəndi tutsalar da, döyüşçülərimiz əks hücuma keçərək kəndi geri ala bildilər. Ağdərə uğrunda gedən döyüşlərdə də o rəşadətlə vuruşub. İqorun son döyüşü 2 avqust 1992-ci ildə oldu "Vışka" yüksəkliyi uğrunda gedən döyüşdə o, "Nikulin" ləqəbli azərbaycanlı ilə birlikdə pulemyotla ön cərgədə gedirdilər. Onlarla erməni quldurunu məhv edən İqor 28 nəfərin mühasirədən çıxmasına imkan yaradır, özü isə qəhrəmancasına həlak olur. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli, 290 saylı Fərmanı ilə Makeyev İqor Vladimiroviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib və Sadıllı qəsəbəsində qəhrəmanımızın adına küçə var.

Mixail Slesaryov 8 may 1955-ci il Rusiyanın Smolensk şəhərində doğulub. Sonradan taleyini Azərbaycanla bağlayan Slesaryov 7 yanvar 1999-cu ildə Qobustan həbsxanasında xidmətini yerinə yetirirdi. Axşamüstü dustaqlar qiyam etdilər. Mixail cəld əməliyyat qrupu yaratdı, silahlı məhbuslar zərərsizləşdirildi. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli, 73 saylı Fərmanı ilə Slesaryov Mixail Aleksandroviçə Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "N" saylı hərbi hissəsində taqım komandiri vəzifəsində çalışırdı. M.Slesaryov 12 aprel 2014-cü ildə vəfat edib.

Ruslan Polovinko 21 oktyabr 1969-cu il Ukraynanın Xarkov vilayətinin Zmiyev şəhərində anadan olub. Ruslan 1991-ci ildən ermənilərin Qarabağda törətdiklər vəhşiliklərə qarşı əməliyyatlarda iştirak etməyə başlayıb. 1992-ci il 6 avqust tarixində şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli, 204 saylı Fərmanı ilə Polovinko Ruslan Aleksandroviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, Ukraynanın Xarkov vilayətinin Zmiyev şəhərində dəfn edilib.

Seryogin Viktor Vasilyeviç 23 mart 1944-cü ildə Gürcüstanın paytaxtı Tiflis şəhərində doğulub. Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaradılmasında onun böyük xidməti olub, dəfələrlə ordenlərlə təltif edilib. Hərbi pilot olan Viktor Ağdərə, Şuşa, Ağdam səmasında özünəməxsus izlər qoyub. O, 28 yanvar 1992-ci ildə dinc sakinləri təhlükəsiz yerə apararaq Ağdam-Şuşa istiqamətində hərəkət edirdi. Erməni yaraqlıları qəfil olaraq vertolyotu atəşə tutdular, Viktor alova bürünmüş vertolyotu kənara yönəldərək insanların tələf olmasının qarşısını ala bildi, özü isə heyətlə birlikdə qəhrəmancasına həlak oldu. Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli, 337 saylı Fərmanı ilə Seryogin Viktor Vasilyeviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Yuri Petroviç Kovalyov 1965-ci il mayın 29-da Göyçay rayonunda rus ailəsində anadan olub.

1990-cı il sentyabr ayının 15-də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilən Yuri Kovalyov Azərbaycanın bir çox döyüş bölgələrində mərdliklə vuruşub. 1991-ci ildə həlak olub. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib. Bakı şəhərindəki 229 saylı orta məktəb Milli Qəhrəmanın adını daşıyır.

Karlov Yevgeni Nikolayeviç 1960-cı il mayın 31-də Tula vilayətinin Dubovka qəsəbəsində anadan olub. Milliyyətcə rus olmasına baxmayaraq, ermənilərin Azərbaycana qarşı elan olunmamış müharibəsi onu da hiddətləndirdiyindən, bu ağır günlərdə Azərbaycan xalqına bacardığı hər cür köməyi göstərməyə çalışıb. O, xidmət etdiyi hərbi hissənin tərkibində dəfələrlə Ağdam, Ağdərə, Füzuli bölgələrində gedən ağır döyüşlərdə iştirak edib, şücaət göstərib. 1992-ci il aprel ayının 11-i kapitan Yevgeni Karlov Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli, 833 saylı Fərmanı ilə Karlov Yevgeni Nikolayeviç Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb, doğulduğu Dubovka qəsəbəsində dəfn edilib

Senyuşkin Sergey Aleksandroviç 15 sentyabr 1957-ci il Rusiyanın Samara vilayətinin Sızran şəhərində anadan olub. 1 fevral 1992-ci ildən həyatını Azərbaycanla bağlayan Sergey hərbi hissə komandiri təyin edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin yaradıcılarından hesab olunan Sergey Senyuşkin mülki təyyarəçilərə hərbçi təlimini keçməklə yanaşı, Qarabağda gedən hərbi əməliyyatlarda iştirak edərək çox sayda erməni döyüşçüsünü məhv edib. Xocalı soyqırımı zamanı xeyli dinc sakini xilas edə bilsə də, Xocalıda ağır yaralanmış və 29 fevral 1992-ci ildə həlak olub. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli, 204 saylı Fərmanı ilə Senyuşkin ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, Samara vilayətinin Sızran şəhərində dəfn edilib.

Qeyd edək ki, bu məlumatlar tədqiqatçı Vüqar Əsgərovun "Azərbaycanın milli qəhrəmanları" kitabından götürülüb.

**Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan xalqı və dövləti torpaqlarımızın müdafiəsi yolunda şəhid olan bu insanları heç zaman unutmur, onların xatirəsini həmişə uca tutur.** "Qarabağda müharibədə könüllü iştirak edərək canlarını torpaqlarımız uğrunda fəda edən qeyri-azərbaycanlı milli qəhrəmanlarımızdan bəziləri bizim ölkədə doğulub boya-başa çatsa da, bir neçəsi başqa respublikalarda doğulub. Milliyyətcə yəhudi olan Albert Aqarunov özü müharibəyə könüllü gedib. A.Aqarunov Bakıda Şəhidlər Xiyabanında torpağa tapşırılanda molla və ravvin eyni vaxtda dua oxuyublar. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan milli qəhrəmanlar arasında Ukrayna, Rusiya, Gürcüstan, Belarus vətəndaşları da var. Azərbaycanda onların hamısının adı əbədiləşdirilib, yaşadıqları binaya barelyefləri vurulub. O milli qəhrəmanlar canlarını bizim üçün çəkinmədən qurban veriblərsə, Azərbaycan dövləti də onların adlarının əbədiləşdirilməsi istiqamətində addımlar atıb, onların ailəsinə dəstək göstərib. Azərbaycandan Rusiyaya, Belarusa, Ukraynaya gedənlər öz vətənlərində dəfn edilən Azərbaycanın milli qəhrəmanlarının məzarlarını ziyarət edirlər. Bu milli qəhrəmanlar doğulduqları ölkələrlə Azərbaycan arasında qırılmaz körpülər yaradıblar. Onların bir çoxu Azərbaycan vətəndaşı olmasa da, bizim torpaqlarımızın müdafiəsi uğrunda şəhid olub, Azərbaycan dövləti də, xalqı da onların qəhrəmanlıqlarını unutmur. Bu insanlar torpaqlarımızı müdafiə etmək üçün ona görə gəlmişdilər ki, bizim xalqa böyük sevgiləri vardı. Əgər onların Azərbaycan xalqına sevgisi, ehtiramı olmasaydı, gəlib Dağlıq Qarabağda şəhid olmazdılar. O milli qəhrəmanların hər birinin qəlbində böyük Azərbaycan sevgisi olub ki, canlarını Azərbaycan yolunda fəda ediblər" -deyə E.Uluxanlı bildirdi.

**"Azərbaycanın milli qəhrəmanları" kitabının müəllifi, tədqiqatçı Vüqar Əsgərov bu kitabı yazmaqla Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olanlara böyük bir abidə qoyub. Vüqar Əsgərov "Bakı-Xəbər"ə bildirdi ki, həmin milli qəhrəmanların Azərbaycan torpaqlarının müdafiəsinə qoşulmasına səbəb onların xalqımıza olan sevgisi olub.** "Milli ordumuzun yenicə formalaşdığı bir dövrdə haqq işimizə dəstək vermək üçün müxtəlif respublikalardan, o cümlədən də Ukraynadan, Belarusdan, Rusiyadan hərbi pilotlar gəldi. Onların hamısı Azərbaycan torpaqlarının müdafiəsinə könüllü qoşulmuşdular. Bu insanlar Azərbaycanın ərazi bütövlüyü uğrunda, sözün həqiqi mənasında, böyük mücadilələr veriblər. Mən onlardan Slesaryov Mixail Aleksandroviçin, Davidoviç Anatoli Nikolayeviçin adlarını çəkmək istəyirəm. Doğrudan da onlar çox böyük şücaət göstəriblər. Hətta bu yaxınlarda Anatoli Davidoviç haqqında film də çəkmişik, həmin filmin Minskdə təqdimatı gözlənir. Dövlətimiz də onun xatirəsini əbədiləşdirib. Goranboy rayonunun Ağcakənd kəndinin düşməndən xilas edilməsində onun böyük rolu olub. O, artilleriyadan istifadə edərək 5 gün ərzində düşmənə zərbə vurub, həmin ərazi düşməndən azad edilib. O, Ağdamda və digər ərazilərimizdə düşmən mövqelərini bombardıman edib. Makeyev İqor Vladimiroviçin də adını xatırlamaq lazımdır. O, Gəncədə doğulub. Qarabağ müharibəsinə könüllü gedib. O, Azərbaycan torpağına o qədər bağlı idi ki, torpaqlarımızın müdafiəsinə qoşuldu. Heç onun müharibəyə getməsini valideynləri istəmirdilər, lakin o, valideynlərinin təkidinə baxmayaraq, ilk könüllülərdən biri kimi cəbhəyə getdi. İqor özünü Azərbaycanın bir parçası sayırdı. Kovalyov Yuri Petroviç də könüllü olaraq döyüşə yollanıb. Onun qəlbi Azərbaycanla döyünürdü, biz onun xatirəsini hər zaman əziz tuturuq. O, Azərbaycan torpağı uğrunda canından keçib. Aqarunov Albert Aqarunoviç, Karlov Yevgeni Nikolayeviç, Polovinko Ruslan Aleksandroviç, Senyuşkin Sergey Aleksandroviç, Seryogin Viktor Vasilyeviç Azərbaycanın ərazi bütövlüyünün qorunmasında qəhrəmanlıqlar göstəriblər, sözün həqiqi mənasında, düşmənə qan uddurublar. Şuşada Albertin göstərdiyi qəhrəmanlıqlar ermənilərin yuxusunu ərşə çəkmişdi. O vaxt Şuşada bütün tanklar çıxsa da, orada yalnız Albertin tankı qalmışdı. O, Şuşanı təkcə saxlayırdı. Onun bu hərəkəti onu göstərir ki, Azərbaycanı nə qədər sevirdi. Ruslan Polovinko Samaradan gəlmişdi, top atıcısı olub. Tuladan olan Yevgeni Karlov pilot olub, onun da çox böyük şücaəti olub. Viktor Seryogin döyüş bölgələrinə 200-dən artıq uçuş edib, Xocalıdan əhalinin çıxarılmasında onun da böyük xidmətləri olub. Bu gün onların xatırlanması, ruhlarının yad edilməsi təqdirəlayiqdir. Siz də sağ olun ki, Azərbaycan torpaqlarının müdafiəsi yolunda şəhid olan bu insanları xatırlayırsınız. Bu milli qəhrəmanların hər biri Azərbaycan xalqının qəlbində özünə böyük abidə ucaldıb" -deyə V.Əsgərov qeyd etdi.

***İradə SARIYEVA***

**Ötən ayın sonlarında "Diqlas" ticarət mərkəzində yanğın baş verdikdə ətrafdakı bitişik tikililər də yanıb. Yanğın nəticəsində "Diqlas" ticarət mərkəzində ticarətlə məşğul olan sahibkarların əksəriyyətinin malları yanaraq kül olub. Sahibkarlar üzləşdiyi maddi çətinlikdən qurtulmaq üçün dövlət rəhbərliyinə müraciət etdilər.**

# "Diqlas"dakı zərərdidə sahibkarlara ölkənin başqa sahibkarları sükutla yanaşdı...



*"Sahibkarlara dəstək olmaq üçün Sahibkarlar Birliyi və ya Assosiasiyası bu məsələdə aktiv olmalı və bunun mexanizmini tərtib etməlidir"*

Sevindirici haldır ki, dövlət zərərlə üzləşən sahibkarlara dəstək oldu. Onların maliyyə sıxıntısının həll olunması üçün güzəştli şərtlərlə kreditin verilməsi də təklif olunur.

## *Vüqar Bayramov: "İnkişaf etmiş ölkələrdə sahibkarların əmlakı və malları sığortalanır"*

Onu da bildirək ki, "Diqlas" ticarət mərkəzində malları yanan ticarətçilərə fərdi sahibkarlıqla məşğul olanlar, xeyriyyə təşkilatları, ayrı-ayrı dövlət idarələri dəstək olmadılar. Halbuki, əksər xarici ölkələrdə müxtəlif səbəblərdən zərərlə üzləşən sahibkarlara "Sahibkarlar Assosiasiyası" dəstək olur. Ancaq ötən ay "Diqlas" ticarət mərkəzində baş verən hadisə ilə bağlı nə sahibkarlar, nə də "Sahibkarlar Assosiasiyası" heç bir reaksiya vermədi. Belə ki, sahibkarlar öz həmkarlarının faciəsinə biganə yanaşdılar.

**İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, beynəlxalq təcrübəyə əsasən, Sahibkarlar Assosiasiyası zərərlə üzləşən sahibkarlara həm maddi, həm də mənəvi dəstək olur. İnkişaf etmiş ölkələrdə sahibkarların əmlakı və malları sığortalanır.** Hər hansı bir faciə hadisəsi baş verən zaman sığorta şirkəti vəsaitlərin ödənilməsini həyata keçirir: "Sığorta ilə yanaşı, Sahibkarlar Assosiasiyası da sahibkarlara dəstək olur. Təəssüf ki, Azərbaycanın Sahibkarlıq Assosiasiyası yalnız texniki layihələr həyata keçirir. Belə bir məqamda Sahibkarlar Assosiasiyası malları yanan sahibkarlara dəstək ola bilər".

Həmsöhbətimiz onu da vurğuladı ki, "Diqlas" ticarət mərkəzində malları yanaraq kül olan sahibkarlara dövlət tərəfindən dəstək göstərildi: "Ancaq xarici ölkələrdə müxtəlif səbəblərdən zərərə uğrayan sahibkara dövlət deyil, Sahibkarlar Assosiasiyası və sığorta şirkəti dəstək olur".

İqtisadçı təklif edir ki, gələcəkdə hər hansı bir xoşagəlməz hadisə baş verərsə, sahibkarlara dəstək olmaq üçün Sahibkarlar Birliyi və ya Assosiasiyası bu məsələdə aktiv olmalı və bunun mexanizmini tərtib etməlidir.

***Günel CƏLİLOVA***

---

**At muraddır! Azərbaycanda minlərlə gözəl, sərrast deyimlərdən biri də elə bu zərb-məsəldir. Yuxuda at görmüsənsə, arzuna, istəyinə çatacaqsan, deməli, ikinci bir yozum yoxdur. Atda bir müqəddəslik, həmişəyaşarlıq, məğrurluq var və daha neçə-neçə bu kimi müsbət keyfiyyətləri özündə cəmləşdirib. Atı nağıllarımıza, dastanlarımıza gətirən, əsas qəhrəmanlardan birinə çevirən də elə bunlardır.**

# Qarabağ atlarını ingilis və almanlar 5 minə alıb Bakıdan aparırlar...



*"Son illər daha çox Almaniya vətəndaşları Qarabağ atı almağa önəm verirlər"*

Sadalanan keyfiyyətlərə bu və ya digər formada başqa heyvanlarda da rast gəlmək mümkündür. Ancaq atı onlardan fərqləndirən bir xüsusiyyət də var - o, insanların əbədi dostu və köməkdarıdır. Atdan təkcə məişət işlərində, kənd təsərrüfatında deyil, müxtəlif xalq oyunlarında da istifadə edilib.

Qarabağ atı - Azərbaycanın Qarabağ ərazisində yaradılmış və geniş yayılmış dağ-minik at cinsidir. Qarabağ atları yüksək qaçış sürəti ilə seçilir. Qarabağ atı daha dözümlüdür və yemə qarşı tələbkar deyil. Qarabağ atlarını Qafqazda mövcud olan digər cinslərlə calaq edərmişlər. Qarabağ cinsli atlar orta boylu, əzələli, yorğa atdır.

Məlumdur ki, Ermənistanın ölkəmizə qarşı

## *Maarif Hüseynov: "Qarabağ cins atlarını xaricilərdən daha çox yerli vətəndaşlar almağa üstünlük verirlər"*

hərbi təcavüzü Qarabağda atçılıq təsərrüfatına da ağır zərbə vurub. 1993-cü ildə Ağdamın ermənilər tərəfindən işğalı zamanı Qarabağ Atçılıq Təsərrüfatı da ermənilərin işğalına məruz qalıb. Ancaq rayonun işğalından bir neçə gün əvvəl Qarabağ atlarının ermənilər tərəfindən özününküləşdirilməsinə yol verməmək məqsədilə atlar döyüş bölgəsindən çıxarılaraq, əvvəlcə rayonun Üçoğlan kəndindəki quşçuluq fermasına, sonra Yevlax rayonundakı "Aran" damazlıq qoyunçuluq təsərrüfatının ərazisinə, daha sonra Bakı Dövlət Cıdır Meydanına aparılıb. 1994-cü ildə isə Ağcabədi rayonunun Xamtorpaq ərazisinə köçürülüb. Çətinliklərə baxmayaraq, Qarabağ atlarını bu günədək qoruyub saxlamaq mümkün olub.

Onu da bildirək ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, Ağcabədi rayonunun inzibati ərazisində Ağdam rayonuna təhkim edilmiş 200 başlıq Qarabağ Atçılıq Kompleksi tikilib.

Bu gün Qarabağ cinsli atlara tələbat yüksəkdir. Tək yerli vətəndaşlar deyil, eyni zamanda, əcnəbilər də Qarabağ atlarına böyük maraq göstərirlər. Onlar Qarabağ atı almaq üçün ölkəmizə təşrif buyururlar.

**Ağdam Atçılıq Zavodunun direktoru Maarif Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dünyanın ən qiymətli cinslərindən olan Qarabağ atları gözəl eksteryerə, yaxşı balavermə qabiliyyətinə malikdirlər.** Bədən ölçüləri, rəngi, xasiyyəti, dözümlülüyü, sahibi ilə davranışı, yoldaşlığı Qarabağ atlarının əsas üstünlükləridir: "Qarabağ atlarının adi yerişi saatda 8 kilometrdən çoxdur. Qarabağ atını başqalarından fərqləndirən əsas cəhət limona çalan, sarı-qızılı, yaxud parlaq narıncı rəngidir. Yalnız Qarabağ atlarına məxsus olan bu orijinal çalardan kürən, qızılı kəhər, qızılı qonur rəngli atlar da yaranıbmış".

Həmsöhbətimizin sözlərinə görə, Qarabağ atlarının şöhrəti dünyaya yayılıb: "Bir çox ölkə vətəndaşı, atçılıqla məşğul olanlar, ümumiyyətlə, bu sahəyə marağı olanlar Qarabağ atı almaq üçün məhz ölkəmizə üz tuturlar. Əsasən Almaniya və İngiltərə vətəndaşları Qarabağ atına daha çox üstünlük verirlər. Son illər daha çox Almaniya vətəndaşları Qarabağ atı almağa önəm verirlər. Onu da deyim ki, xaricilərlə yanaşı, yerli vətəndaşlar da Qarabağ cins atını almağa böyük maraq göstərirlər".

Qarabağ atlarının satış qiymətinə gəlincə, M.Hüseynov qeyd etdi ki, 2500-50 min manat arasında dəyişir: "Məlumat üçün bildirim ki, almanlar və ingilislər daha çox 2500-5000 dəyərində olan Qarabağ cins atını alırlar. Satışa çıxarılan at cinslərinin nəsil göstəriciləri tam şəkildə qeyd olunur. Eyni zamanda, ata və anasının və özünün də üstünlükləri qeyd olunur. Bu kimi detallar nəzərə alınaraq ona qiymət təyin olunur".

M.Hüseynov onu da vurğuladı ki, müsbət üstünlüklərə malik Qarabağ cins atlarını xaricilərdən daha çox yerli vətəndaşlar almağa üstünlük verirlər.

***Günel CƏLİLOVA***

# Aprel şəhidlərimizə ayrıca anım abidəsi...

**Azərbaycan xalqına böyük zəfər yaşadan aprel döyüşlərindən 3 il keçir. Bildiyimiz kimi, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan Ordusu işğal altında olan ərazilərimizin Ermənistan silahlı qüvvələrindən təmizlənməsi məqsədilə hərəkətə keçdi.**





***Elman Nəsirov:*** *"Aprel şəhidlərinin xatirəsinə abidə ucaldılması vacibdir"*

***Nəzakət Məmmədova:*** *"Aprel şəhidlərinin xatirəsinə böyük bir abidə ucaldılmalı və bu abidə qəhrəmanlıq simvolu olaraq xalqımızın ziyarət yerinə çevrilməlidir"*

Azərbaycanın yeni tarixinin mühüm səhifəsinə çevrilən aprel döyüşləri 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi və Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar və Madagiz kəndləri istiqamətində yollar düşməndən azad olundu. Qanlı döyüşlər zamanı Azərbaycan əsgər və zabitləri misilsiz cəsurluq nümayiş etdirdilər. Torpaqlarımızın azadlığı uğrunda başlanan aprel döyüşlərində zabitlərimiz və əsgərlərimiz canlarını Vətənə fəda edərək şəhidlik zirvəsinə yüksəldilər. Əlbəttə, dövlətimiz, xalqımız aprel döyüşlərində həlak olan Vətən övladlarını unutmur və onların xatirəsini əziz tuturlar.

Aprel şəhidlərinin xatirəsinə anım abidəsinin ucaldılması günümüzün zəruri məsələlərindən birinə çevrilib. Canını Vətənə qurban verən oğulların xatirəsinin əbədiləşdirilməsi üçün aprel şəhidləri abidəsinin qoyulması müsbət hal olardı.

**Millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə bildirdi ki, aprel şəhidlərinə abidə ucaldılması olduqca vacibdir.** "Bizim tarixi şanlı qələbəmizin simvolu olan aprel döyüşlərindən üç il keçir. Bu döyüşdə Azərbaycan Ordusu, əsgəri, zabiti, generalı Azərbaycanın yeni tarixini yazdı. Aprel döyüşləri ilk növbədə Ermənistan ordusunun "məğlubedilməzliyi" haqqında formalaşdırılan mifi dağıtdı. Həm də o zaman erməni ekspertləri bir qədər də qabağa gedib Ermənistan ordusunu hətta İsrail ordusu ilə müqayisə edirdilər. Azərbaycanın qəhrəman oğulları bu mifi darmadağın etdilər. Vətən oğullarımızın 4 gün ərzində apardığı döyüşlər nəticəsində xeyli ərazimiz işğaldan azad olundu və Azərbaycanın üçrəngli müqəddəs bayrağı Cəbrayılın, Füzulinin və Ağdərənin işğaldan azad edilən ərazilərində dalğalandı, ordumuzun şücaəti nəticəsində Lələtəpə və digər çox mühüm yüksəkliklər geri qaytarıldı. Hesab edirəm ki, aprel döyüşləri cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan dövlətinin bütün sütunlarını sarsıtdı. Hələ də Ermənistan özünə gələ bilməyib. Ali Baş Komandanın dediyi kimi, aprel döyüşlərində Azərbaycan Ordusu bütün malik olduğu hərbi potensialın cüzi bir hissəsindən istifadə etdi, bütün hərbi gücümüzü işə salsaydıq, Ermənistanda daş-daş üstündə qalmazdı. İlk növbədə aprel döyüşləri Azərbaycan Ordusunun peşəkarlığının, xalqımızın və dövlətimizin gücünün ifadəsi idi. Aprel döyüşləri hər bir Azərbaycan vətəndaşında, hər bir azərbaycanlıda böyük inam yaratdı ki, biz torpaqlarımızı hərbi yolla geri qaytarmaq gücünə, potensialına, əzminə, qüdrətinə malik dövlətik. Bu mühüm tarixi qələbəni tariximizə yazan Azərbaycan əsgəri oldu. Aprel döyüşlərində igidlərimiz şəhid oldu. Aprel döyüşləri bizim şanlı tariximizin çox mühüm bir səhifəsidir və aprel zəfəri bizi yeni-yeni qələbələrə ruhlandırıb. Aprel şəhidlərinin xatirəsinə abidə ucaldılması vacibdir və bunun çox böyük siyasi, eyni zamanda da vətənpərvərlik baxımından əhəmiyyəti olardı. Bu həm də hər bir Azərbaycan vətəndaşında bu inamı hasil edər ki, biz güclüyük və aprel zəfərinə imza atmışıqsa, bundan sonra bütün Dağlıq Qarabağ ərazisini, eləcə də onun ətrafında olan 7 rayonu da qaytarmaq gücünə malik dövlətik, xalqıq. Bu baxımdan, hesab edirəm ki, aprel şəhidlərinə abidə qoyulması çox yerinə düşərdi və bunun da çox böyük tarixi əhəmiyyəti, mənası olardı" - deyə E.Nəsirov bildirdi

**Respublika "Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova da hesab edir ki, aprel şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi mütləqdir.** O qeyd etdi ki, aprel şəhidlərinə abidə qoyularsa, bunun çox mühüm tarixi, siyasi əhəmiyyəti olar. "Aprel şəhidlərinin ailələri "Xatirə kitabı"nın da qapısını tez-tez döyürlər. Biz onlarla ünsiyyətdə oluruq. Mən "Ağlama, şəhid qızı" şeirimi aprel şəhidlərindən birinin övladına yazmışam. Aprel şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən işlər görülür. Bir müddət əvvəl aprel şəhidlərinin xatirəsinə böyük bir park salınıb və orada hər şəhidin adına bir ağac əkilib. Aprel müharibəsi 4 gün müddətində davam etsə də, o bizə çox böyük qələbə müjdəsi verdi. Aprel şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün daha çox işlər görməliyik. Aprel şəhidlərinin xatirəsi hər zaman yad edilməlidir. Bu baxımdan, aprel şəhidlərinin xatirəsinə böyük bir abidə ucaldılmalı və bu abidə qəhrəmanlıq simvolu olaraq xalqımızın ziyarət yerinə çevrilməlidir. Onlar öz qəhrəmanlıqları ilə örnək oldular. Bir daha inandıq ki, şəhid versək də, öz şücaətimizi düşmənə göstərə bildik və torpaqlarımızın müəyyən bir hissəsini işğaldan azad etdik. Bizim mübariz oğullarımız bu qələbəni bizə yaşatdılar" - deyə N.Məmmədova bildirdi.

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ASLANOV ZƏFƏR MƏHƏRRƏM oğlu**



11 sentyabr 1973-cü ildə Azərbaycan Respublikasının İsmayıllı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İsmayıllı rayonunun Tircan kəndində yaşamışdır. İsmayıllı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Zəfər Məhərrəm oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 10 dekabr 1992-ci ildə Zəngilan rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Zəfər Məhərrəm oğlu 10 dekabr 1992-ci il tarixində Zəngilan rayonunun Qazançı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aslanov Zəfər Məhərrəm oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV ZÜLFÜ SABİR oğlu**

12 noyabr 1973-cü ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağdam rayonunun Xındırıstan kəndində yaşamışdır. Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Zülfü Sabir oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Er-



mənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 9 fevral 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Zülfü Sabir oğlu 9 fevral 1993-cü il tarixində Ağdam rayonunun Nərgiztəpə adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aslanov Zülfü Sabir oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOVA ELNARƏ TOFİQ qızı**



1 iyun 1978-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Mülki şəxs. Aslanova Elnarə Tofiq qızı Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanova Elnarə Tofiq qızı 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı Kətik meşəsi ərazisində naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanova Elnarə Tofiq qızının sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOVA GÜLSABAH QƏYYUM QIZI**

6 sentyabr 1972-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Mülki şəxs. Aslanova Gülsabah Qəyyum qızı Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin



düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanova Gülsabah Qəyyum qızı 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı Kətik meşəsi ərazisində naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanova Gülsabah Qəyyum qızının sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da içməli suyun təmin edilməsi üçün müəyyən addımlar atılır. Bu gün su filtrlərinin satışı ilə məşğul olan şirkətlərin sayı kifayət qədər çoxdur. Şirkətlər arasında rəqabət isə insanları çaş-baş salıb. Əməkdaşlar məhsullarını elə reklam edirlər ki, vətəndaş bilmir evində bir stəkan su içsin, yoxsa içməsin.**

***Eyyub Hüseynov:** "Su filtrlərinin satışı ilə məşğul olan şirkətlər əhalini suya elektroliz cihazı qoymaqla aldadırlar"*

***"AzFiltr" - Kamran:** "Şirkət su filtrlərinin evlərə satışını həyata keçirir, bu işlə xüsusi şəxslər məşğul olurlar"*

***"Su filtri" - Nazim:** "Satış həm onlayn, həm də evlərə gedib məhsulu reklam etmək formasında həyata keçirilir"*






# "Azərsu" su filtri satanları ifşa etdi, satıcı şirkətlər isə müəmmaya döndülər...

Paytaxtda, eləcə də bölgələrdə yaşayan sakinlər deyirlər ki, gecə-gündüz filtr satanların əlindən bilmirlər nə etsinlər. Filtr satışı ilə məşğul olanlar qeyd olunan qurğunu satmaq üçün əllərindən gələni edirlər. Ev sahibləri deyirlər ki, şirkətdən gələn işçilər gətirdikləri xüsusi qurğu vasitəsilə suyun tərkibini yoxlayırlar: "Yoxlama zamanı isə suyun üzünə qalxan çirkli maddələr və bulanıq qat bizi məyus edir. Bu da içdiyimiz suyun yararsız olduğunun sübutudur. Amma bu onların reklam etdikləri filtrlərin problemi aradan qaldıracağına da dəlalət etmir. Filtrin keyfiyyətli olub-olmadığını bilmirik, həm pulumuz gedir, həm rahatlığımız".

Qeyd edək ki, günün birinci yarısı əksər insanın işdə olduğunu düşündükləri üçün, bu cür reklam xarakterli "ziyarətlər" günün ikinci yarısına, bəzən də kifayət qədər gec saatlara təsadüf edir. Bu isə, əlbəttə ki, insanların istirahətini pozur və vətəndaşı narahat edir. Qapı-qapı gəzərək sakinləri içdikləri suyun yararsız olmasına inandıran belə şirkət nümayəndələri filtri satmayana qədər əl çəkmirlər. Onlar daha çox axşam saatlarında, bütün ailə üzvlərinin evdə olduğu vaxtda mənzillərin qapısını döyürlər. Əvvəlcə işi mənzilə yol tapıb ev sahibini suyun analizi üçün təcrübəyə razı salmaqdan ibarət olan xanım əməkdaş göndərilir. Daha sonra bir neçə qurğu ilə ailənin istifadə etdiyi suyun heç texniki suya da yaramadığını "sübut edir" və sağlam yaşamağın yeganə yolunun su filtri almaq olduğuna inandırırlar.

Ekspertlər isə bildirirlər ki, fırıldaqçılıqla məşğul olan bu şirkətlərin əksəriyyəti rəsmi qeydiyyatdan keçməyib və qanunsuz fəaliyyət göstərirlər. Su filtrlərinin qiyməti isə 550 -1400 manat arasında dəyişir.

Su filtrlərinin satışı ilə məşğul olan şirkətlərin də cavabını öyrənmək istədik. Lakin əksər şirkətin nə adlarını, nə də telefon nömrələrini tapa bildik. Tapdığımız nömrələrə ya zəng çatmadı, ya da qeyd olunan nömrənin şirkətə aid olmadığı deyildi.

"AzFiltr" su filtr şirkətinin servis üzrə nümayəndəsi Kamran adlı şəxs "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, şirkət su filtrlərini evlərə satış üçün göndərir: "Bu işlə xüsusi şəxslər məşğul olurlar. Su filtrlərinin qiyməti fərqlidir. Məsələn, kömürlü su filtrinin qiyməti 20 manatdır. Kömürlü su filtri sudan gələn pis qoxuları aradan qaldırır və suyun tərkibindəki xloru zərərsizləşdirir. Bu filtr 2 və ya 6 aydan bir dəyişdirilməlidir.

Kokos filtri də 15-20 manat arasında dəyişir. Kokosun kömüründən hazırlanıb və suyu təmizləyir. Eynilə kokoslu su filtri də 6 aydan bir dəyişdirilməlidir.

Elə filtrlər var ki, onların satış qiyməti yüksəkdir. Satış qiyməti yüksək olan filtrlər isə il ərzində bir dəfə dəyişdirilməlidir".

"Su filtri" şirkətinin nümayəndəsi Nazim adlı şəxs bizimlə söhbətində bildirdi ki, onlar su filtrinin satışı ilə məşğuldurlar: "Satış həm onlayn, həm də evlərə gedib məhsulu reklam etmək formasında həyata keçirilir.

Su filtrlərinin qiyməti 650-1500 manat arasında dəyişir. Su filtrlərinin qiyməti onların keyfiyyəti və istehsal olunduğu firmaya görə dəyişir. 1500 manata olan su filtrinin sertifikatı olur, ancaq daha aşağı qiymətə olanda isə olmur. Onu da bildirim ki, 650 manata olan su filtri Tailand istehsalıdır. 1500 manata olan isə ispan modelidir, lakin Tailandda hazırlanır".

Su filtrləri satan şirkətlərlə bağlı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin bəyanatı yayılıb. Cəmiyyətin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirib ki, Bakı və Bakıətrafı ərazilərdə bəzi işbazlar əhaliyə verilən içməli suyun tərkibinin insan orqanizminə zərərli olması ilə bağlı şayiələr yayır, vətəndaşlara baha qiymətə su filtrləri təklif edirlər: "Su filtrləri satan şirkətlərin bu sahə üzrə heç bir təhsili olmayan gənc əməkdaşlarının qapı-qapı gəzərək (əsasən də axşam saatları) şəbəkədən verilən suyun keyfiyyətsiz olması barədə insanları aldatmaq cəhdləri hələ də davam edir. İnsanların diqqətinə çatdırırıq ki, suyun elektroliz cihazı və TDS aparatı ilə yoxlanması sadəcə onları aldatmağa hesablanıb. Elektroliz cihazının təsirindən suyun üzərində yaranan tünd yaşıl rəngli təbəqə suyun tərkibindəki palçığın və çirklənmənin deyil, əksinə, onun tərkibindəki mineralların elektroliz yolu ilə oksidləşmə və rediksiya prosesi nəticəsində əmələ gələn yeni maddələrin, onlara xas olan rəng və iyin göstəricisidir. Suyun üzərində belə bir təbəqə əmələ gəlmirsə, deməli, bu, filtrdən keçirilmiş və mineralları tutulub saxlanmış "ölü" sudur. TDS aparatı ilə yoxlanılan suyun göstəricisi 1000 ppm-ə qədər olduqda, bu su içməyə yararlı sayılır. Ancaq filtr satan şirkətlərin əməkdaşları insanların bu sahədə bilgilərinin az olmasından sui-istifadə edib yalan məlumatlar verməklə onları aldatmağa cəhd edirlər. Kimya və biologiyadan heç bir anlayışı olmayan həmin gənclər TDS aparatı ilə yoxlanılan və 200-300 ppm (qeyd - ümumi mineralların yol verilən qatılıq həddi) təşkil edən suyu çirkli su adlandırır və bununla da insanları aldadırlar.

Əhaliyə verilən içməli suyun tərkibində ümumi mineralların yol verilən qatılıq həddi qüvvədə olan standartlara əsasən, 1500-ə qədər olduqda bu su içməyə yararlı sayılır. Bu gün Azərsu ASC-nin insanlara verdiyi suda isə bu göstərici 250-500 arasında dəyişir. Başqa sözlə, bu gün istehlakçılara verilən suda qeydə alınan bu göstəricilər tam normalar çərçivəsindədir".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, əksər hallarda filtri quraşdırıb gedəndən sonra belə firmaları tapmaq müşkülə çevrilir:** "Su filtri satışı ilə məşğul olan şirkətlərdən Birliyə çoxlu sayda şikayət daxil olur. Araşdırma zamanı məlum olur ki, su filtri satan şəxslərin heç ofisi də yoxdur, internet vasitəsilə sifariş edir, gətirib insanların evinə quraşdırır, sonra da telefon nömrəsini dəyişib aradan çıxır. Biz bu şikayəti araşdıraraq zərərçəkmiş şəxsin pulunu geri qaytarmağa nail olduq".

Ekspertin sözlərinə görə, su filtrlərinin satışı ilə məşğul olan şirkətlər əhalini suya elektroliz cihazı qoymaqla aldadırlar. Cihaz suyun daxilində olan zərrələr və ionların bir-birilə toqquşmasına səbəb olur. Bundan sonra suyun içində olan minerallar yanır və ortaya qatı palçıq kimi maddələr çıxır. Gördüyü qarşısında heyrətə düşən istehlakçı asanlıqla reklam olunan su filtrindən almağa razı olur. Əslində isə ortaya çıxan palçıqvari maddə suyun daxilində olan mineralların yanması nəticəsində əmələ gəlir ki, bu da normal prosesdir: "Bu su filtrləri həm də ona görə təhlükə mənbəyidir ki, suda insan bədəni üçün əhəmiyyətli olan kalsium, natrium, maqnezium, fosfor, kalium, dəmir, mis və sink kimi mineralları yox edir.

Hazırda ölkədə su filtri bazarında hərcmərclik yaşanır. Kanalizasiyaya içalat, pampers və digər tullantıların atılması təmizləyici qurğuların işini çətinləşdirir. Bu vəziyyətdən istifadə edən su filtri satanlar da at oynadırlar. Problemin hökumət səviyyəsində qaldırılmamasının səbəbi ölkədə istehlakçı hüquqlarının qorunmamasıdır".

*Günel CƏLİLOVA*

# Əfsanəvi Cavad xanı diriləndən rejissor özü həyatla vidalaşdı

***Nurəddin Mehdixanlı:** ”...dünya malında gözü olmayan adam idi”*

**Böyük Yunis Əmrə deyirdi ki, gələn qonar, qonan köçər. Əlbəttə, bu fani dünyada heç kəsə əbədi ömür verilmir, hər kəs alnına yazılan bəxti, taleyi yaşayır, vədəsi tamam olanda əbədiyyət evinə güzar edir. Ayrılıqlar bizi ağrıtsa da, sarsıtsa da, gələnin bir gün qayıtmalı olduğu təsəllisi ilə yaşamağa məcbur oluruq. Başqa çarə də yoxdur.**



*”Rövşən Almuradlının özündən sonra Azərbaycan xalqına, türk dünyasına yadigar qalan ən böyük mirası, ən böyük abidəsi ”Cavad xan” filmidir”*

Təbiətən sakit adam idi, ölümü də qəfil və sakit gəldi. İçindəki təlatümləri, ağrıları, iztirablı yaşantıları üzə vurmazdı ki, nə çəkdiyini dost-tanış, yaxın saydıqları anlasınlar. Sağlığında həmişə deyirdi ki, mənim zamanım hələ gəlməyib. Bəlkə də daxilində kök salan yeni yaradıcılıq arzularını, tamaşa və filmlərini yaratmaq üçün əlavə bir zaman gözləyirdi. O zaman da gəldi, ancaq gəlib onu özü ilə birgə zamansızlığa apardı. Aprelin 2-də, səhər saatlarında şəhərin Sahil küçəsində dayanacaqda avtobus gözləyərkən halı qəfil pisləşdi, hadisə yerinə gələn təcili yardım maşını onu xəstəxanaya apararkən ölüm aman vermədi. Azərbaycanın görkəmli kino və teatr rejissoru, ssenaristi, yazarı, aktyoru, Azərbaycan qəhrəmanı Cavad xana "Cavad xan" filmi ilə yeni həyat verən Rövşən Almuradlıdan danışıram.

Rövşən Almuradlı 1954-cü il aprelin 19-u Bakı şəhərində anadan olub. Düz 17 gündən sonra böyük sənətkarın 65 yaşı tamam olacaqdı.

R.Almuradlı 1972-1976-cı illərdə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsində ali təhsil alıb. Sonra o, aktyor kimi Tədris Teatrında fəaliyyətə başlayıb. 1984-1987-ci illərdə Moskvada SSRİ Mədəniyyət Nazirliyi nəzdində Təkmilləşdirmə İnstitutunda ali rejissorluq kursunu bitirib, Moskva Dövlət Akademik Satira Teatrında təcrübə keçib, orada onun kurs rəhbəri SSRİ xalq artisti V.N.Pluçek olub.

1976-1980-ci illərdə Şəki Dövlət Dram Teatrında çalışan aktyor, həmin illərdə Şekspirin "Kral Lir"ində Kral Lir, Cəfər Cabbarlının "Aydın"ında Dövlət bəy, Anarın "Adamın adamı"nda İbiş İbişli və Xoca Zıq-zıq, Əkrəm Əylislinin "Kür qırağının meşələri"ndə Qasım obrazlarını yaradıb. O, 1980-1985-ci illərdə Sumqayıt Dövlət Dram Teatrında Ə.Əylislinin "Vəzifə" tamaşasının quruluşçu rejissoru olub.

1987-ci ildə Şəki Dövlət Dram Teatrında M.Salimoviçin "Dərviş və ölüm", 1987-ci ildə Sumqayıt Dövlət Teatrında N.Hikmətin "Bayramın birinci günü", 1988-ci ildə Sumqayıt Dövlət Teatrında M.Süleymanlının "Dəyirman" əsərlərinin quruluşçu rejissoru olub. R.Almuradlı 1988-1989-cu illərdə Mingəçevir Dövlət Dram Teatrının baş rejissoru olarkən Y.Səmədoğlunun "Qətl günü", V.Sergeyevin "Bağlı qapı arxasında iki nəfər" əsərlərinə quruluş verib. 1989-cu ildə "Azərbaycanfilm" kinostudiyasının "Debüt" studiyasında "Hücum" adlı qısametrajlı bədii filmin quruluşçu rejissoru, 1990-cı ildə çəkilən "Azadlığa gedən yollar" filminin rejissorlarından biri, 1991-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının nəzdində açılan müstəqil "İstiqlal" teatrının bədii rəhbəri, 1991-ci ildə M.Süleymanlının "Zirzəmi", 1992-ci ildə M.Dostoyevskinin "Şıltaq qız", 1992-ci ildə Qoqolun "Dəlinin qeydləri", 1992-ci ildə Gəncə Dövlət Dram Teatrında Anarın "Beş mərtəbəli evin altıncı mərtəbəsi" kimi əsərlərin quruluşçu rejissoru, 1993-1995-illərdə "Bəri bax" müstəqil kinostudiyasında tammetrajlı "Yük" bədii filminin quruluşçu rejissoru olub.

R.Almuradlı 1994-cü ildə "Doğma" kino-povesti əsasında çəkilən "Ümid" bədii filminin müəllifidir. R.Almuradlı AzTV-nin "Sabah" yaradıcılıq birliyində, "Telefilm" yaradıcılıq birliyində bir sıra televiziya tamaşalarının və bədii televiziya filmlərinin quruluşçu rejissoru olub. 2006-2008-ci illərdə Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilmiş "Cavad xan" bədiii filminin quruluşçu rejissoru olmaq ona həvalə edilib.

2005-ci ildə Akademik Milli Dram Teatrında səhnələşdirilən İ.Şıxlının "Ölüləri qəbiristanlıqda basdırın" əsərinin rejissoru idi. Rövşən Almuradlı 2006-cı il oktyabr ayının 25-də Akademik Milli Dram Teatrına quruluşçu rejissor vəzifəsinə qəbul edilib.

Bakı Bələdiyyə Teatrında 2010-cu ildə M. Süleymanlının "Bəylik dərsi" əsərinə, 2011-ci ildə Anarın "Qaravəlli" əsərinə, 2012-ci ildə M.F.Axundovun "Müraviyyə vəkilləri əhvalatı" əsərinə, 2012-ci ildə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında F.Dürrenmattın "Yaşlı xanımın gəlişi" əsərinə quruluş verib.

Akademik Milli Dram Teatrının ustad aktyoru, respublikanın xalq artisti, R.Almuradlının quruluşçu rejissoru olduğu "Cavad xan" filmində Cavad xan obrazını yaradan, mərhum sənətkarın tələbə yoldaşı Nurəddin Mehdixanlı R.Almuradlı barədə kövrək hisslərini dilə gətirdi.

"Rövşən Almuradlı mənim tələbə yoldaşım idi. O bizdən yuxarı kursda oxuyurdu. Hər ikimiz aktyorluq kursunda təhsil alırdıq. Tələbəlik illərindən bir-birimizi tanıyırdıq. O, sənətə sənəti sevərək, istəyərək gəlmişdi, sənətə təsadüfən gələn adam deyildi. O vaxt İncəsənət Universitetinin "Tədris" teatrında Adil İsgəndərov "Xanlar" tamaşasını hazırlayırdı, biz də onunla o tamaşada rol almışdıq. Bizim dostluğumuz, yaxın münasibətimiz həmin tamaşadan başladı. O zaman böyük sənət yaranır ki, o işlə şəxsiyyəti bütöv adamlar, Vətənini, millətini, ölkəsini, bayrağını, dilini, milli əxlaqi dəyərlərini sevən və onu qoruyan insanlar məşğul olurlar. Başqa mənada yaranmış bütün şeylər yarımçıq olur, sənət nümunəsi olmur. Bu mənada, R.Almuradlı həm sənətkar olaraq, həm insan olaraq bütöv idi. Sənətkarın şəxsiyyətindəki bütövlük özünü daim onun yaradıcılığında göstərirdi. Onun müraciət etdiyi mövzular, tamaşalara verdiyi yozumlar çox fərqli idi. Yəni həyata başqa cür baxa, bir əsəri başqalarından fərqli oxuya bilirdi. R.Almuradlı səmimi adam idi, gümüş adam idi, dünya malında gözü olmayan bir adam idi. Sadəcə olaraq, onun tamaşaya qoymaq istədiyi bəzi əsərlər, çəkmək istədiyi filmlər vardı. Onun müraciət etdiyi mövzulara fikir versəniz görərsiniz ki, həmin mövzulardan milli xətt keçir, milli dərd keçir. O istər kiçik bir tamaşa qoysun, yaxud qısametrajlı bir film çəksin, mütləq şəkildə orada həmin xətti aparırdı. Əslində, R.Almuradlını sevdirən də onun mənsub olduğu ölkəyə, xalqa olan sevgisi idi. O, əslində, çox danışan adam deyildi. Oturardın yanında, saatlarla sən danışardın, o qulaq asardı, ya da səni danışdırmağa çalışardı. Bütün ömrü boyu öyrənmək istəyirdi. Onun üçün bir çobanın da, adi bir insanın da söhbəti maraqlı idi. Elə bil ki, o bizim xalqa aid olan bütün gözəllikləri özünə hopdurmağa çalışırdı. Bunu artıq qoyduğu bir tamaşada, çəkdiyi bir sənədli, ya da bədii filmdə göstərməyə çalışırdı. Belə adamlar çox az-az olurlar. Mən sizə deyim ki, o həm də çox abırlı-həyalı adam idi. Qəribədir ki, istedadlı adamlar çox abırlı-həyalı olurlar, özü də uzun yaşamırlar. R.Almuradlı öz idealları, arzu və istəkləri olan həqiqətən də böyük sənətkar idi. Hesab edirəm ki, onun yaradıcılıq potensialından kifayət qədər istifadə edilmədi. Halbuki, o bizim teatrımıza, kinomuza, mənəvi dünyamıza çox böyük işlər görə bilərdi. Çox heyif ki, o çox işləri, arzuları gerçəkləşdirə bilmədi. Nə deyək, qismət. Təəssüf ki, aramızdan şəxsiyyət, sənət, əxlaq sahibləri gedirlər, bir bozlaşma yaranır, hara qədər bilmirəm. Azərbaycan mədəniyyəti, Azərbaycan teatrı çox böyük sənətkarı, şəxsiyyəti itirdi".

*”Onun yaradıcılıq potensialından kifayət qədər istifadə edilmədi”*

"Cavad xan" filmini də xatırladan sənətkar bildirdi ki, bu filmi çəkməklə R.Almuradlı tarixi qəhrəmanımızı yenidən xalqımıza qaytardı. "Biz duyğu, düşüncə baxımından bir-birimizə çox yaxın insanlarıq. Təsəvvür edin ki, Sabir Rüstəmxanlı, Rövşən Almuradlı və N.Mehdixanlı - bunların duyğuları, düşüncələri, xalqı, dövləti haqqında, tarixi keçmişimiz haqqındakı fikirləri tamamilə üst-üstə düşürdü. Sovet rejimindən qalmış bir ənənə idi ki, bu xalqın düşmənləri, bu millətə qarşı vuruşanlar, bu millətin müstəqil dövlətini yıxanlar haqqında filmlər çəkilirdi, təbliğ olunurdu, düşmənlər "dost", "xilaskar" kimi təqdim olunurdular. Ancaq Cavad xan kimi kişilər, xalqımızın milli qəhrəmanları, böyük oğulları düşmən kimi təqdim olunublar. Əslində, bu, "Cavad xan" filmi keçmiş sovet rejiminin millətimizə etdiyi zülmə və yoxsullaşdırmaya qarşı bir üsyan idi. Biz o deyilik. Bizim düşmənimiz Cavad xan deyil, filankəslərdir. "Cavad xan" filmi keçmiş saxta tarixin üstündən bir qələm çəkdi və əsl tariximizin necə olmalı olduğunu göstərdi. Bu filmdən sonra, belə deyək, çap olunan tarix kitablarımızda da, tariximizə münasibətdə də çox şeylər dəyişdi, tarix olduğu kimi yazılmağa başladı.

Mən bütün ömrüm boyu Sabir Rüstəmxanlıya və Rövşən Almuradlıya minnətdaram ki, onlar Cavad xanda məni gördülər, bu işi mənə etibar etdilər. Şəxsən mən "Cavad xan rolunu oynadım" fikrindən uzağam, bu obraz mənim üçün bir həyat idi, ruhi vəziyyət idi ki, mən onu yaşadım. Həmin film həyatımda da, psixologiyamda da, dünyagörüşümdə də çox şeyi dəyişdi. Hesab edirəm ki, R.Almuradlının özündən sonra Azərbaycan xalqına, türk dünyasına yadigar qalan ən böyük mirası, ən böyük abidəsi "Cavad xan" filmidir. Əsrlər keçəcək, ancaq R.Almuradlı həmişə xatırlanacaq. Çünki o bu millətin böyük qəhrəmanı olan, torpağı, Vətəni uğrunda şəhid olan Cavad xanı yenidən Azərbaycan xalqına qaytardı, tariximizə qaytardı və ona layiq olduğu yerini göstərdi" -deyə N.Mehdixanlı bildirdi.

Böyük sənətkara Allah rəhmət eləsin!

***İradə SARIYEVA***

№ 58 (3956) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

3 APREL 2019-cu il

www.baki-xeber.com

# Xәrçәng risqini azaldan 7 bitki...

**Dünya Sәhiyyә Tәşkilatının son mәlumatlarına әsasәn, xәrçәng xәstәliyindәn әziyyәt çәkәn insanların sayı 18 milyona çatıb. "Milli.Az" xәbәr verir ki, dәhşәtli xәstәliyin son illәrdәn durmadan artmasının sәbәblәrindәn biri kimi istehsal olunan mәhsulların tәrkibi göstәrilir.**

Bәs, xәrçәngin qarşısını almaq üçün tәbiәtin rәngli gücü nә qәdәr tәsirlidir? Türkiyәli dietoloq Nilay Keçәçi Arpacı xәrçәng riskini azaldan 7 faydalı mәhsulun adını açıqlayıb. 20 növ amin turşu vә antioksidant xassәlәrә malik olan sәmәni B vitamini kompleksi, C vitamini, selen, fosfor, maqnezium vә kalium minerallları ehtiva edir. Tәrkibindәki xlorofil hemoqlobin hasilatını artırır



vә buna bağlı olaraq orqanizmdә oksigen miqdarı da artır. Qısası, buğda suyu xәrçәng hüceyrәlәrinin yaranması, böyümәsi üçün qeyri-münbit şәrait yaradaraq prosesә mane olur. Buğda şirәsindәn gündә әn çox 1 araq qәdәhi qәdәr içilmәlidir. Əsrlәrdir ki, qocalıq prosesini gecikdirmәk vә diabet xәstәliyinin müalicәsindә istifadә edilәn jenşen bәdәn müqavimәtini artıraraq immun sistemini dәstәklәyәn güclü bir qidadır. Jenşenin әn әhәmiyyәtli xüsusiyyәti immunitet sistemini güclәndirmәsidir. Bu da xәrçәnglә mübarizәdә bir addım öndә olmağınızı tәmin edir. Sellülozla zәngin olan әnginarın tәrkibindә A, B1, B2, B6 vә C vitaminlәri var. Mineral tәrkibi әn yüksәk olan tәrәvәzlәrdәn biridir. Fosfor, kalsium, dәmir, natrium, kalium, maqnezium vә sink da daxildir. Daşıdığı kuarsetin, gallik turşusu vә sinarin kimi kimyәvi komponentlәr vә antioksidant maddәlәr sayәsindә başda xәrçәng olmaq üzrә bir çox xәstәliyә qarşı qoruyur vә immuniteti dәstәklәyir. Hәftәdә bir vә ya iki dәfә әnginar yeyә bilәrsiniz. Tәrkibinin böyük hissәsi su olan vә olduqca aşağı kalorili ananas xәrçәngә qarşı mübarizәdә әhәmiyyәtli qüvvәdir. Ananasın tәrkibindәki "bromelain" maddәsi şiş hüceyrәlәrin inkişafını dayandıran xüsusiyyәtә malikdir. Xüsusilә bağırsaq, ağciyәr, yumurtalıq vә dәri xәrçәngi xәstәliklәrindә şiş hüceyrәlәrinin böyümәsinә mane olur. Tәrkibindәki dәmir, kalsium, kalium, maqnezium, A-B vә C vitaminlәri ilә sәrbәst radikallardan qoruyur. Qara tut B qrupu vitaminlәri, A vә K vitamini, dәmir, kalium vә fosfor baxımından zәngindir. Zülal tәrkibi digәr meyvәlәrә nisbәtәn olduqca çoxdur. Qara tut suyu dәri xәrçәnginin inkişaf prosesini әngәllәyir. Xüsusilә, ehtiva etdiyi güclü antioksidant flavonoid qrupu olan "antosianinlәr" xәrçәnglә döyüşdә tәsirlidir. Qara tut suyu kanserogen maddәlәri tәsirsiz hala gәtirmәk, anormal hüceyrә çoxalmasını vә hüceyrә bölünmәsini dayandırır. Sarıkökün anti-enflamuar mәzmunu xәrçәngdәn qoruyur. Tәrkibindәki kurkuminoid birlәşmәlәri xәrçәng hüceyrәlәrinin inkişafının qarşısını alır. Antioksidant xüsusiyyәti ilә sәrbәst radikallara qarşı mübarizәdә mühüm rolu vardır. Odur ki, bu güclü әdviyyatı gündәlik menyunuza mütlәq daxil edin. Sellüloz, kalsium, fosfor, B6 vә A vitamini baxımından zәngin xassәlәrә malik olan gәndalaş bu tәrkibi sayәsindә әn faydalı qırmızı meyvәlәr arasında yer alır. Gәndalaşdan әldә edilәn yağın qaraciyәr, prostat, döş vә dәridәki xәrçәng hüceyrәlәrinin böyümәsini dayandırmağa vә ya lәngitmәyә tәsirli olduğu bilinir.

## Elan

Azәrbaycan Respublikasının Əmlak Mәsәlәlәri Dövlәt Komitәsinin yanında Daşınmaz Əmlakın Dövlәt Reyestri Xidmәti tәrәfindәn vәtәndaş Qayıbova Mәlәk Sәfәrbәy qızına verilәn (seriya MH № 0027526) çıxarış itdiyi üçün etibarsız sayılır.

Mirzәli Emin Camal oğluna Azәrbaycan Dövlәt İqtisad Unversiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Bağırov Elqar Elmir oğlunun adına, Buzovna Bağlar massivindә yerlәşәn 86 b/2 nömrәli bağın № 58 orderi itdiyi üçün etibarsız sayılır(52 nömrәli kooperativ).

Fәrziyev Seymur Natiq oğluna Bakı Dövlәt Rabitә vә Nәqliyyat Kolleji tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Cabbarova Rәfiqә Yaqub qızının adına, Buzovna Bağlar massivindә yerlәşәn 87 v/2 nömrәli bağın № 59 orderi itdiyi üçün etibarsız sayılır (52 nömrәli kooperativ).

Startsev Konstantin Vladimiroviçә mәxsus, Bakı şәhәri, Nizami rayonu, Rüstәmov küçәsi, ev 58, mәnzil 34 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əliyev Vidadi Qәşәm oğlunun adına, Bakı şәhәri, Nәrimanov rayonu, Ceyhun Hacıbәyli küçәsi, bina 32 a, mәnzil 38 ünvanının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Zeynalov Emin Ramiz oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Zәrdabi küçәsi 41 vә 43 saylı binaların arasında yerlәşәn ünvana verilmiş çıxarış (seriya RX №0506818) vә torpaq sahәsinin plan vә ölçüsü (№AA 066349) itdiyi üçün etibarsız sayılır.

Bәşirli Ülvi Kamil oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Hәsәn bәy Zәrdabi prospekti 43 vә 49 saylı binaların arasında yerlәşәn ünvana verilmiş çıxarış (seriya RX №0512582), torpaq sahәsinin plan vә ölçüsü (№AA 067140) itdiyi üçün etibarsız sayılır.

Bәşirli Ülvi Kamil oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Hәsәn bәy Zәrdabi prospekti 43 vә 49 saylı binaların arasında yerlәşәn ünvana verilmiş çıxarış (seriya RX №0511839), torpaq sahәsniin plan vә ölçüsü (№AA 067149) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Atlaz İslam qızının adına, Bakı şәhәri, Bilәcәri qәsәbәsindә yerlәşәn evә Bilәcәri Bәlәdiyyәsi tәrәfindәn 07.09.2007-ci il tarixdә verilmiş № 793 qәrar itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Maddi, real işlәrlә mәşğul olun, hәyatdan kam alın. Sözlәrin dәyәri çox deyil vә buna görә dә kimәsә öz mövqeyinizi anladaraq sinirlәnmәyin. Yalnız qarşılıqlı maraq varsa, işgüzar görüşlәr fayda verәcәk.



**Buğa** - İşlәrә praktik vә sayıq yanaşmanın tәlәb olunduğu gündür. Dünәn hisslәrlә hәyәcanın bol olduğu sahәdә indi nisbi sakitlikdir. Yetәrincә әlaqә vә mәlumat topladığınız sahәlәrdәki qarşılıqlı tәmasda olan mәsәlәlәr sizi maraqlandıracaq.



**Əkizlәr** - Şәraitә sürәtlә, tez uyğunlaşın, amma tәlәskәnlik etmәyin, hövlnak addımlar atmayın. Mümkün qәdәr faydalı әlaqәlәr yaradın. Sәfәr, sәyahәt vә ünsiyyәt üçün uğurlu gündür.



**Xәrçәng** - Ambisiyalarınızı hәrәkәtә gәtirәcәk maraqlı vә әlverişli gündür. Potensialın araşdırılması ilә imkanların dәyәrlәndrilmәsi maraqlı nәticәlәr vәd edir. Özünüz barәdә indiyәdәk etiraf etmәk istәmәdiyiniz gerçәyi bilәcәksiniz.



**Şir** - Sәhәr saatlarından etibarәn aktiv vә sayıq olun. Əsas mәsәlә olur ki, heç yerә tәlәsmәyin, sәbrli olun, başladığınız işi sona çatdırın. Yaxın әtrafınızdakı insanların narazılığını hiss edәcәksiniz.



**Qız** - İşlәrdәki müvәqqәti fasilә şәxsi hәyatınıza daha çox vaxt ayırmağa imkan verәcәk. Rahatlıq vә komfort axtarışları gözlәnilir. Tәfәrrüatlara vә detallara diqqәt verin. Hәssas, sayıq olun.



**Tәrәzi** - Əvvәlki günlәrdәn yığılıb qalan, afterşok tәsiri bağışlayan emosiyalardan qurtulun. Uğurlu alış-veriş, xoş әhval, sәrfәli işlәr günüdür. Fәaliyyәt planı ilә bağlı kimsәyә tәzyiq göstәrmәyin.



**Əqrәb** - Maksimal fayda vә mәnfәәtә nail olmaq üçün sәylәrinizi dürüst istiqamәtә yönәldin. Əlavә tapşırıq alsanız vә ya başqasının görmәli olduğu işi sizә tapşırsalar, buna yox deyin, müqavimәt göstәrin.



**Oxatan** - Emosiyalar vә hisslәrdә qayda yaratmaq üçün әlverişli gündür. Sevdiyiniz, dәyәr verdiyiniz insanlara laqeyd olmayın. Onların qayğısına qalın. Yaradlıcılıq mәziyyәtlәriniz yüksәkdә olacaq.



**Oğlaq** - Tәsir imkanlarına tam nәzarәt edin, yoxsa arzuolunmaz hadisәlәrlә qarşılaşa bilәrsiniz. İşlәr çoxdur, amma aktiv olun, qәtiyyәtli davranın, planı reallaşdırmaq üçün bütün imkanlardan yararlanın.



**Dolça** - İzafi sәy göstәrmәyin, özünüzü hәddәn artıq yormayın. Situasiyaları nüanslar hәll edir. Yaşananları müşahidә edin vә köhnә problemi hәll etmәk imkanını әldәn vermәyin. Alış-veriş üçün әlverişli gün deyil.



**Balıqlar** - Sakit, istirahәt vә rahatlıq hisslәrinin güclәndiyi gündür. Yaxın perspektivdә sizә faydalı ola bilәcәk insanla әlaqә saxlayın. Hisslәrdә müәyyәnliyin yaranması üçün әlverişli gündür.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Ölünü mәzardan çıxarıb polis bölmәsinә apardılar...

**Peruda qәbiristanlıqlardan birindә qәribә hadisә baş verib.**

"Sputnik Azәrbaycan" bildiir ki, qәbiristanlıq nәzarәtçisi mәzardan sәsin gәldiyini eşidәrәk bu haqda polisә mәlumat verib. Sәsin gәldiyi mәzar müәyyәnlәşәndәn sonra isә hәmin yeri qazmağa başlayıblar. Bu zaman basdırılan şәxsin ölmәdiyi mәlum olub. İlginc olayla әlaqәdar mәzarlıqdan çıxarılan şәxsin ifadәsinin alınması üçün onu polis bölmәsinә aparıblar. İstintaq davam edir.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

**Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3500*

**Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.**

**Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.**